QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 038 (5758) **26 fevral** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Azərbaycan 2019-cu ildə uğurlar və inkişaf yolu ilə gedəcək"

*Prezident İlham Əliyevin yanında iqtisadi və sosial məsələlərlə bağlı müşavirə keçirilib*



Səh 2

**Xocalıya ədalət!" beynəlxalq kampaniyası Xocalı soyqırımı barədə həqiqətlərin dünyada tanıdılmasında mühüm rol oynadı**

Bax 8

*-Gənclər siyasəti Azərbaycan dövlətinin həyata keçirdiyi daxili siyasətin mühüm tərkib hissəsidir. Bu siyasətin əsas məqsəd və prinsipləri, istiqamətləri, həmçinin dövlətin üzərinə düşən vəzifələr "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu və bu sahədəki digər normativ-hüquqi aktlarla müəyyən olunur. Gənclərin hərtərəfli inkişafı üçün zəruri olan şəraitin yaradılması, bu baxımdan dövlətin üzərinə düşən vəzifələrin səmərəli şəkildə yerinə yetirilməsi məsələsi daim ölkə rəhbərliyinin...*

**Sosial müavinətlərin artımı 577 min nəfəri əhatə edəcək**

Bax 9

*Azərbaycan Respublikası Prezidentinin "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncamı ilə 16 növ sosial müavinət və təqaüd artırılıb və bu artım 577 min vətəndaşı əhatə edəcək. AZƏRTAC xəbər verir ki, bunu fevralın 25-də əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev sosial müavinətlərin artırılması ilə əlaqədar keçirdiyi mətbuat konfransında deyib. Nazir bildirib ki, bu islahatlara hər il 400 milyon manat vəsait sərf ediləcək. Bu il isə bunun üçün 302 milyon vəsait sərf olunacaq. Sahil Babayev, həmçinin deyib: "Birinci qrup əlilliyi olanların təqaüdü 82 manatdan 150, ikinci qrup..."*

**Ermənilər Türkiyə ordusunun Qarsda keçirdiyi hərbi təlimlərdən qorxuya düşüblər**

Bax 9

*Ermənilər Türkiyə ordusunun Qarsda keçirdiyi hərbi təlimlərdən qorxuya düşüblər. Erməni hərbi analitik David Arutyunov bu təlimləri Yerevana qarşı təzyiq vasitəsi adlandırıb. AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, Türkiyə Silahlı Qüvvələrinin Qars vilayətində təşkil etdiyi və Azərbaycan, Bosniya və Herseqovina, Qətər, Böyük Britaniya, Almaniya, İtaliyadan 251 hərbçinin iştirak etdiyi "Qış-2019" irimiqyaslı hərbi təlimlərinin uğurla başa çatması ermənilərin təşvişinə səbəb olub. Bu qorxunu açıqca büruzə verən Arutyunov bildirib ki, həmin tədbirin...*

**Prezident İlham Əliyev əhalinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı Sərəncam imzalayıb**



3

**Xocalı soyqırımının dünyada tanınması tarixi zərurətdir**



4

**Xocalı soyqırımından 27 il ötür**




**"Xocalı soyqırımını unutmadıq!" adlı tədbir keçirilib**



6

**Gürcüstan Prezidenti Azərbaycana səfərə gələcək**



6

**DSX-nin rəisi "Master Cup"un qalibləri ilə görüşüb**



7

7

**"Kaspi" liseyində Xocalı faciəsi ilə əlaqədar anım tədbiri keçiriib**



12

**"Bazarlarda süni şəkildə qiymət artımı qeydə alınmayıb"**



11

**"2019-cu il sosial sahədə inqilabi islahatlar ili kimi tarixə düşə bilər"**



# "Azərbaycan 2019-cu ildə uğurlar və inkişaf yolu ilə gedəcək"

*Prezident İlham Əliyevin yanında iqtisadi və sosial məsələlərlə bağlı müşavirə keçirilib*



***Fevralın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında iqtisadi və sosial məsələlərlə bağlı müşavirə keçirilib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı müşavirədə çıxış edib. Prezident İlham Əliyev öz çıxışında diqqətə çatdırıb ki, ilin birinci ayının sosial-iqtisadi göstəriciləri deməyə əsas verir ki, aparılan islahatlar öz gözəl nəticələrini verir. 2018-ci il dərin iqtisadi islahatlar ili olmuşdur, xüsusilə prezident seçkilərindən sonra islahatların yeni mərhələsinə təkan verilib:***

"2017-ci il isə iqtisadi sabitləşmə ili idi. Biz 2017-ci ildə iqtisadi sabitliklə bağlı çox önəmli addımlar atmışıq. Bu, bizə imkan verdi ki, 2018-ci ildə çox ciddi islahatlara başlayaq və islahatlar özünü göstərir. Əgər bu ilin yanvar ayının yekunlarına nəzər salsaq görərik ki, iqtisadi artım, yəni, ümumi daxili məhsulun artımı təxminən 3 faiz təşkil edir. Son 2-3 il ərzində bu, ən yüksək göstəricidir və onu göstərir ki, 2019-cu ildə Azərbaycanda iqtisadi artım yüksək templərlə təmin ediləcək və davam etdiriləcək. Eyni zamanda, son illər ərzində apardığımız uğurlu sənayeləşmə siyasəti öz nəticələrini göstərir. Bu ilin birinci ayında qeyri-neft sektorunda sənaye istehsalı təxminən 14 faiz artmışdır. Hesab edirəm ki, bu, dünya miqyasında ən yüksək göstəricilərdən biridir, bəlkə də birincisidir və onu göstərir ki, sənaye istehsalı sahəsində aparılan işlər, qəbul edilmiş qərarlar bu gün real nəticələrə gətirib çıxarır.

İqtisadi, makroiqtisadi vəziyyət sabitdir, manatın məzənnəsi bir ildən çoxdur ki, sabit olaraq qalır, inflyasiya ən aşağı səviyyədədir. Yəni, bütün bunlar görülmüş işlər nəticəsində mümkün olub və bir daha onu göstərir ki, sosial və iqtisadi islahatlara alternativ yoxdur. 2019-cu ilin sonrakı aylarında da çox ciddi islahatlar aparılacaq və dərinləşdiriləcək ki, ölkəmizin hər bir sahəsində inkişaf, tərəqqi olsun, vətəndaşlar daha da yaxşı yaşasınlar.

Yanvar ayında Davos Ümumdünya İqtisadi Forumu çərçivəsində apardığım danışıqlar, görüşlər bir daha onu göstərir ki, ölkə iqtisadiyyatına böyük biznes tərəfindən çox böyük maraq var. Azərbaycan ilə əməkdaşlıq etmək istəyən, investisiya qoymaq istəyən şirkətlərin sayı artır və növbəti illər üçün xarici sərmayəni qeyri-neft sektoruna cəlbetmə məsələləri prioritet təşkil edəcəkdir. Eyni zamanda, Davosda aparıcı beynəlxalq maliyyə qurumlarının rəhbərləri ilə də görüşlərim onu göstərir ki, Azərbaycanda aparılan islahatlara çox böyük maraq var və bu islahatlara çox yüksək qiymət verilir. Biz dünyanın aparıcı beynəlxalq maliyyə qurumları - Dünya Bankı, Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa İnvestisiya Bankı ilə çox səmərəli, işgüzar əməkdaşlıq aparırıq. Dünyanın bu aparıcı maliyyə qurumlarının yüksək vəzifəli nümayəndələri bu yaxınlarda Bakıda keçirilmiş Cənub Qaz Dəhlizi Məşvərət Şurasının toplantısında iştirak etmişlər və əminəm ki, bizim bu qurumlarla əməkdaşlığımız gələcəkdə də çox uğurlu olacaqdır.

Yanvar ayında regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramı qəbul edildi, üçüncü proqrama yekun vuruldu. Üçüncü proqram artıqlaması ilə icra edilmişdir. Qarşımızda duran bütün vəzifələr icra olunmuşdur. Beləliklə, son 5 il ərzində, xüsusilə bölgələrdə və Bakı şəhərində böyük infrastruktur layihələri icra edilmişdir. Beş ilə hesablanan dördüncü proqram bizə imkan verəcək ki, bu günə qədər görə bilmədiyimiz işləri, layihələri yerinə yetirək və bu gün icra olunan layihələri başa çatdıraq."

Dövlət başçısı qeyd edib ki, aparılan ciddi iqtisadi islahatlar, şəffaflıqla bağlı görülən işlər büdcə daxilolmalarına da müsbət təsir göstərib. Təkcə ilin birinci ayında daxilolmalar kəskin artıb. Vergi orqanları plandan əlavə 80 milyon manatdan çox vəsait toplayıblar. Həmçinin gömrük orqanları plandan əlavə 20 milyon manatdan çox vəsait toplayıblar və ümumi daxilolmalar 105 milyon manat artıb, təkcə bir ay ərzində:

> "Bildirmək istəyirəm ki, 2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaqdır"

"Bu, nəyi göstərir? Onu göstərir ki, bu sahədə aparılan islahatlar, şəffaflıqla bağlı atılan addımlar öz nəticəsini verir. Bu gün islahatların dərinləşməsi üçün çox gözəl şərait yaradılıbdır.

Onu da bildirməliyəm ki, bu ilin birinci ayında Dövlət Neft Fondunun gəlirləri də əhəmiyyətli dərəcədə artıb. Yəni, bizim maliyyə vəziyyətimiz yaxşılaşır, sabit olaraq qalır və bu, əlbəttə, bizə imkan verir ki, əlavə gəlirləri, ilk növbədə, vətəndaşların sosial müdafiəsinə yönəldək. Mən bu məsələ ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişəm. Hələ keçən ilin sonunda bildirmişəm və bu ilin əvvəlində demişəm ki, biz əlavə gəlirləri, ilk növbədə, vətəndaşların sosial müdafiəsinə yönəltməliyik. Çünki bu, bizim üçün prioritet məsələdir, vətəndaşların sosial rifahının yaxşılaşdırılması ən başlıca vəzifəmizdir. Bu istiqamətdə artıq bir çox ciddi addımlar atılıb və atılacaq. Ümumiyyətlə, bildirmək istəyirəm ki, 2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaqdır.

Hələ keçən ilin dekabr ayında hərbçilər üçün inşa edilmiş yeni binanın açılışı zamanı bildirmişdim ki, şəhid ailələrinin sosial məsələləri öz həllini tapacaq. Bildiyiniz kimi, prezident seçkilərindən sonra imzaladığım ilk Fərman şəhidlərin vərəsələrinə veriləcək 11 min manat ödənişlə bağlı idi. Siyahılar dəqiqləşdirilirdi və ilkin təhlil onu göstərmişdir ki, təqribən 9500 şəhid ailəsinə ödəmələr veriləcəkdir. Ancaq sonra dəqiqləşmə aparıldı. Dekabr ayında mən bildirdim ki, dəqiqləşmə nəticəsində bu rəqəm artacaq və artdı. Hazırda 12 min 200-dən çox şəhid ailəsinə dövlət tərəfindən 11 min manat ödəniş edilir və bu ilin sonuna qədər bu proqram tam icra olunacaqdır. Bununla paralel olaraq, şəhid ailələri ilə görüşdə onlar məsələ qaldırdılar ki, müavinətlər də artsın. Dərhal Fərman imzalandı və bu müavinət 242 manatdan 300 manata artırıldı. Maddi imkanlarımız artdıqca, əlbəttə ki, daim bu məsələ diqqət mərkəzində olacaqdır. Əfqanıstanda həlak olanların ailələrinə verilən müavinət də bu yaxınlarda artırılmış, 220 manatdan 300 manata qaldırılmışdır. Bu da ədalətli yanaşmadır. Bir sözlə, bütün bu məsələlərlə bağlı biz ardıcıl olaraq öz siyasətimizi aparırıq. Maddi imkanlarımız artdıqca, ilk növbədə, bu məsələləri həll edirik.

Məcburi köçkünlərlə bağlı bu il çox geniş inşaat proqramları icra ediləcək. Əgər keçən il 5900 köçkün ailəsi üçün mənzillər, evlər tikilmişdirsə, bu il 6 mindən 7 minə qədər köçkün ailəsi yeni mənzillərlə, evlərlə təmin ediləcək. Müvafiq göstərişlər verildi. Həm bölgələrdə, həm Bakı şəhərində, Sumqayıt şəhərində bu proqram icra ediləcəkdir.

Şəhid ailələri üçün bu il 800 mənzil alınıb onlara veriləcək. Keçən il 626 mənzil verilmişdir. Yəni, iki il ərzində 1400-dən çox mənzil şəhid ailələrinə veriləcək. Bu günə qədər mənzil almayan bütün şəhid ailələri əminəm ki, növbəti illər ərzində, yaxın gələcəkdə mənzillərlə təmin ediləcəklər. Onu da bildirməliyəm ki, bu günə qədər 6500-dən çox şəhid ailəsi dövlət tərəfindən mənzillərlə, evlərlə təmin edilmişdir.

Bu il biz minimum əməkhaqqını əhəmiyyətli dərəcədə artırdıq - 38 faiz. Bu, böyük artımdır, 130 manatdan 180 manata qalxıbdır. Bu, 600 min insanı əhatə edir. Ancaq o da həqiqətdir ki, bu rəqəm bizi heç də razı sala bilməz. Ona görə müvafiq göstərişlər verildi ki, minimum əməkhaqqının gələcək artımı ilə bağlı təkliflər hazırlansın. İndi bunun maliyyə yükünü, əlbəttə ki, biz qiymətləndirməliyik. Əlbəttə ki, gələcəkdə minimum əməkhaqları və pensiyalar ardıcıl olaraq artırılacaq.

**Ardı Səh. 3**

# “Azərbaycan 2019-cu ildə uğurlar və inkişaf yolu ilə gedəcək”

*Prezident İlham Əliyevin yanında iqtisadi və sosial məsələlərlə bağlı müşavirə keçirilib*

Əvvəli Səh. 2

Minimum pensiyalarla bağlı çox ciddi qərar qəbul edildi. Minimum pensiyaların məbləği də təxminən 38 faiz, bir qədər çox artmışdır - 116 manatdan 160 manata qədər. Bu gün minimum pensiyanın səviyyəsinə görə Azərbaycan MDB məkanında ikinci yerdədir. Ancaq onu da bilməliyik ki, bu, son hədd deyil. Əlbəttə ki, əməkhaqlarının, pensiyaların artırılması gündəlikdə duran əsas məsələlərdən biridir. Minimum pensiyanın artırılması 223 min insanın pensiya təminatını yaxşılaşdıracaqdır.

Uzun illər ərzində vətəndaşları narahat edən problemlərdən biri də vaxtilə tikilmiş və hansısa səbəblərə görə rəsmi olaraq qəbul edilməmiş çoxmənzilli binaların sənədləşməsi məsələsi idi. Biz bu məsələyə də son qoyduq. İmzaladığım Fərman əsasında artıq bu məsələ həll olunmuş hesab edilməlidir. Yaxın gələcəkdə müvafiq dövlət orqanları bütün sənədləşmə işlərini apararaq məsələnin həllini təmin edəcəklər. Dörd yüz çoxmənzilli binada təxminən 60 minə yaxın ailə yaşayır. O vətəndaşların ailə tərkibləri təqribən toplam 300-400 min arasıdır. Yəni, bu da çox ciddi addım idi. Biz bunu da həll etdik.

Tələbələrin təqaüdləri artırıldı. Təqribən 100 minə yaxın tələbənin təqaüdü artırıldı. Bu da çox ciddi sosial addımdır. Gələcəkdə yenə də artım nəzərdə tutulur.

Vətəndaşları narahat edən məsələlərdən biri də problemli kreditlərlə bağlıdır. Bu məsələ artıq neçə vaxtdır ki, müzakirə olunur. Hökumət üzvlərinə müvafiq göstərişlər verilmişdir. Keçən ildən başlayaraq çox fəal iş aparılır, təkliflər paketi hazırlanır. Bilirəm ki, Milli Məclisdə də bu məsələ müzakirə olunur. Müxtəlif təkliflər səsləndirilir. Əlbəttə, biz istəyirdik ki, bu məsələ ciddi ictimai diskussiyalara da səbəb olsun və buna nail olduq. Ancaq deyə bilərəm ki, bu məsələ ilə son mərhələdə işçi qrupu çox ciddi məşğuldur. İki aydan çoxdur ki, təkliflər üzərində iş aparılır. Bu, o qədər də sadə məsələ deyil. Biz bu məsələni həll etməklə əsas vəzifəni vətəndaşların rifah halının yaxşılaşmasında, onların maliyyə yükünün azaldılmasında görürük. Bu, ilk növbədə, ciddi sosial təşəbbüs kimi qəbul edilməlidir.

Deyə bilərəm ki, bir neçə ay ərzində aparılan çox ciddi müzakirələr artıq nəticəyə gəlməyə şərait yaradır. Ümid edirəm ki, biz bu təhlilin son mərhələsindəyik. Ümid edirəm ki, yaxın gələcəkdə bu məsələ də öz həllini tapacaq və Azərbaycan bu məsələnin həlli ilə bağlı da öz liderliyini göstərəcək və çox ciddi nümunə göstərəcək. Çünki biz bilirik ki, buna oxşar addımların atılması ilə bağlı bəzi ölkələrdə müvafiq qərarlar qəbul edilmişdir, ancaq onlar icra edilməmişdir. Yəni, burada xoş niyyətin olması əsas şərt deyil. Burada, əlbəttə ki, düzgün təhlilin aparılması və vətəndaşlar üçün ən məqbul variantın seçilməsidir. Əlbəttə ki, bizim buna maliyyə imkanlarımızın çatması məsələsi də ön plandadır. Bu gün, sadəcə olaraq, anons vermək istəyirəm ki, bu məsələ artıq yekunlaşmaq üzrədir.

Bir məsələni də qeyd etmək istəyirəm. Artıq bir neçə aydır ki, ciddi sosial paket üzərində iş aparılır. Bu sosial paketin ilk təzahürləri haqqında mən artıq bildirdim, minimum əməkhaqqının, minimum pensiyanın, tələbələrin təqaüdlərinin artırılması, digər ödənişlərin verilməsi bütün böyük sosial paketin tərkib hissəsidir. Eyni zamanda, sosial müavinətlərlə bağlı olan məsələ də öz həllini tapacaq. Sosial müavinətlər çox əhəmiyyətli dərəcədə artırılacaq.

Yəni, bütün bunlar - bu çox böyük proqram 500 mindən çox əhalini əhatə edəcək. Sadaladığım bütün bu təşəbbüsləri əgər biz təhlil etsək, o cümlədən problemli kreditlərdən əziyyət çəkən vətəndaşların da sayını müəyyən etsək, təqribən 2 milyon 200 min əhali dövlətin sosial təşəbbüslərinin icrasından böyük dərəcədə faydalanacaq.

Bu, çox ciddi sosial paketdir. Bir daha demək istəyirəm ki, bu paketin reallaşması, ilk növbədə, bizim güclü siyasi iradəmizə söykənir. Çünki mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Eyni zamanda, bizim maliyyə imkanlarımız buna imkan verir. Maliyyə imkanlarımızı biz əldə etmişik, biz yaratmışıq. Məhz aparılan islahatlar nəticəsində bizim gəlirlərimiz, büdcə gəlirlərimiz artır, artacaq və artmalıdır. Ona görə bir daha demək istəyirəm ki, bizim iqtisadi inkişafımız sosial məsələlərin həlli ilə nə qədər bağlıdır. Bu da təbiidir. Bizdə güclü iradə, güclü sosial siyasət var. Eyni zamanda, elan edilmiş və icra edilən ciddi iqtisadi və sosial islahatlar bizə imkan verir ki, əlavə maliyyə resurslarını məhz vətəndaşların rifah halının yaxşılaşmasına yönəldək. Əminəm ki, 2019-cu il bütövlükdə ölkəmiz üçün uğurlu il olacaqdır. Azərbaycan 2019-cu ildə uğurlar və inkişaf yolu ilə gedəcəkdir.” Sonra müşavirədə müzakirələr aparılıb.

> “Hazırda 12 min 200-dən çox şəhid ailəsinə dövlət tərəfindən 11 min manat ödəniş edilir və bu ilin sonuna qədər bu proqram tam icra olunacaqdır”

# Prezident İlham Əliyev əhalinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı Sərəncam imzalayıb

***Prezident İlham Əliyev əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində tədbirləri davam etdirmək və bu tədbirlərin əhatə dairəsini daha da genişləndirmək məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi aşağıdakılarla bağlı normativ hüquqi aktların layihələrini 15 gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:***



1.1. yaşa görə sosial müavinətin məbləğinin 130 manata çatdırılması;

1.2. sosial müavinətin məbləğinin I qrup əlilliyə görə 150 manata, II qrup əlilliyə görə 130 manata, III qrup əlilliyə görə isə 110 manata çatdırılması;

1.3. sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara sosial müavinətin məbləğinin 150 manata çatdırılması;

1.4. ailə başçısını itirməyə görə sosial müavinətin məbləğinin 80 manata çatdırılması;

1.5. valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) sosial müavinətin məbləğinin 100 manata çatdırılması;

1.6. müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqlarına sosial müavinətin məbləğinin 100 manata çatdırılması;

1.7. beşdən çox uşağı olan qadınlara sosial müavinətin məbləğinin hər uşaq üçün 55 manata çatdırılması;

1.8. uşağın anadan olmasına görə sosial müavinətin məbləğinin 200 manata çatdırılması;

1.9. dəfn üçün ödənilən sosial müavinətin məbləğinin 300 manata çatdırılması;

1.10. I qrup əlillərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərə qulluq üçün əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə I qrup əlilliyi olan şəxslərə qulluq edənlərə və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edənlərə 50 manat məbləğində Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi;

1.11. müharibə veteranlarına kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət, habelə döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarının əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə 80 manat məbləğində Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi;

1.12. müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləğinin I qrup əlilliyə görə 250 manata, II qrup əlilliyə görə 230 manata, III qrup əlilliyə görə 210 manata çatdırılması;

1.13. əlillik ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar səbəblərdən baş verdikdə I qrup əlilliyə görə sosial müavinət alanlara Azərbaycan Respublikası Prezidentinin təqaüdünün əmək pensiyası almaq hüququ olan I qrup əlillərə (gözdən əlillər istisna olmaqla) şamil olunması və məbləğinin 100 manata çatdırılması;

1.14. 1941 - 1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və “Leninqradın müdafiəsinə görə” medalı, “Leninqrad mühasirəsində yaşayan” döş nişanı ilə təltif edilmiş şəxslərə (müharibə əlilləri istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləğinin 150 manata çatdırılması.

Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn digər məsələləri həll etmək tapşırılıb.

# Xocalı soyqırımının dünyada tanınması tarixi zərurətdir

***Tarixi faktlar göstərir ki, azərbaycanlılar erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasətinə məruz qalaraq, öz tarixi torpaqlarından didərgin salınmış, qaçqın və məcburi köçkünə çevrilmişlər. "Böyük Ermənistan" ideyası ilə yaşayan ermənilər öz məqsədlərinə çatmaq üçün xarici himayədarların köməyi ilə müxtəlif vaxtlarda azərbaycanlılara qarşı terror və soyqırımı həyata keçirməklə etnik təmizləmə siyasəti aparmışlar. Təkcə XX əsrdə azərbaycanlılar 4 dəfə - 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və 1988-1993-cü illərdə soyqırımı və etnik təmizləmələrə məruz qalmışlar.***



*Əli Həsənov*
*Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, professor*

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənovun "Xocalı soyqırımının dünyada tanınması tarixi zərurətdir" sərlövhəli məqaləsi bu fikirlərlə başlayır. AZƏRTAC məqaləni təqdim edir.

XX əsrin əvvəllərində erməni millətçiləri "Daşnaksütyun" partiyasının proqramında irəli sürülən "böyük Ermənistan" ideyasını reallaşdırmaq istiqamətində fəaliyyətini genişləndirərək öz tarixi torpaqlarında yaşayan azərbaycanlıları planlı surətdə doğma yurdlarından qovmaqla etnik təmizləmə və soyqırımı siyasətini həyata keçirmişlər. Nəticədə 1905-1906-cı illərdə ermənilər Bakıda, Gəncədə, Qarabağda, İrəvanda, Naxçıvanda, Ordubadda, Şərur-Dərələyəzdə, Tiflisdə, Zəngəzurda, Qazaxda və başqa yerlərdə dinc azərbaycanlılara qarşı qırğınlar törətmiş, əhali amansızlıqla qətlə yetirilmiş, şəhər və kəndlər yandırılmış və dağıdılmışdır. Erməni silahlı dəstələri Şuşa, Zəngəzur və Cəbrayıl qəzalarında, İrəvan və Gəncə quberniyalarında azərbaycanlılar yaşayan 200-dən artıq yaşayış məntəqəsini viran qoymuş, on minlərlə soydaşımız öz doğma yurdlarından qaçqın və məcburi köçkün düşmüşdür.

Bu prosesin davamı olaraq, 1917-ci ilin dekabrında Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar təyin edilən S.Şaumyan azərbaycanlıların kütləvi qırğınının təşkilatçısı və rəhbərinə çevrildi. Erməni silahlı qüvvələri tərəfindən 1917-ci ilin əvvəllərindən 1918-ci ilin mart ayına qədər olan dövrdə İrəvan quberniyasında 197, Zəngəzur qəzasında 109, Qarabağda 157 kənd dağıdılmış, digər bölgələrdə 60 yaşayış məskəni məhv edilmiş, yandırılmış və viran qoyulmuşdur.

1918-ci il martın 31-də və aprelin ilk günlərində minlərlə dinc azərbaycanlı yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Həmin günlərdə erməni-bolşevik birləşmələri Bakıda 12 min dinc azərbaycanlını qətlə yetirmişlər.




Bu qanlı hadisələr zamanı insanlar evlərində diri-diri yandırılmış, eləcə də xüsusi işgəncələrlə və amansızlıqla öldürülmüşdür.

Ümumilikdə, 1918-1920-ci illərdə ermənilər tərəfindən törədilmiş kütləvi qırğınların Bakı, Quba, Şamaxı, Kürdəmir, Lənkəranla yanaşı, Şuşada, İrəvan quberniyası ərazisində, Zəngəzurda, Naxçıvanda, Şərurda, Ordubadda, Qarsda və başqa bölgələrdə amansız şəkildə davam etdirilməsi nəticəsində on minlərlə azərbaycanlı ən qəddar üsullarla qətlə yetirilmişdir.

1948-1953-cü illərdə Ermənistan SSR-də yaşayan azərbaycanlıların tarixi torpaqlarından, xüsusilə də İrəvan və onun ətraf rayonlarından kütləvi şəkildə deportasiya olunması nəticəsində 150 minə yaxın soydaşımız zorakılıqla Azərbaycanın aran rayonlarına köçürülmüşdür.

XX əsrin 80-ci illərinin ikinci yarısında ermənilər özlərinin yaxın və uzaq xaricdəki himayədarlarının köməyi ilə yenidən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə dair ərazi iddiaları irəli sürdülər.

1988-ci ildən başlayaraq qonşu Ermənistan dövləti beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq, BMT üzvü olan digər bir suveren ölkəyə - Azərbaycana qarşı ərazi iddiaları qaldıraraq, ölkəmizin Dağlıq Qarabağ Muxtar Vilayətini və ətrafdakı 7 rayonunu işğal etmiş (dövlətin ümumi ərazisinin 20 faizi), bir milyondan artıq dinc əhalini (ölkə əhalisinin hər 8 nəfərindən birini) öz doğma yurd-yuvasından didərgin salmaqla etnik təmizləmə həyata keçirmişdir. Ermənistanın bölgədə apardığı təcavüzkar siyasətin nəticəsi olaraq, 30 ilə yaxındır ki, Cənubi Qafqazda silahlı münaqişə və qanlı toqquşmalar davam edir. Azərbaycanın və beynəlxalq sülhyaratma qurumlarının, ilk növbədə, BMT və ATƏT-in bütün səylərinə baxmayaraq, hələ də Ermənistan işğal etdiyi torpaqlardan geri çəkilmək istəmir və bölgədə dayanıqlı sülhün bərqərar olmasına ciddi maneə törədir. Hazırda Cənubi Qafqazda hər an yeni silahlı toqquşmalar və qanlı müharibələr başlaya bilər ki, bu da yeni-yeni insan fəlakətlərinə səbəb olar.

Davakar erməni millətçiləri son iki əsrə yaxın bir müddətdə dövlət səviyyəsində Cənubi Qafqazdakı tarixi Azərbaycan torpaqları və Türkiyənin Şərqi və Cənub-Şərqi Anadolu ərazilərində mifik "böyük Ermənistan" dövləti yaratmaq ideyasını gerçəkləşdirmək məqsədilə davamlı olaraq Türkiyə türklərinə və azərbaycanlılara qarşı qanlı terror, kütləvi qırğın, deportasiya və etnik təmizləmə kimi bəşəri cinayətlər törətməkdə davam edirlər. Onlar yenə də dövlət səviyyəsində rəsmi millətçi-şovinist ideologiya həyata keçirərək, erməni "alim"lərinin əli ilə bölgənin real tarixini saxtalaşdırmış, erməni xalqının bir neçə nəslinə milli müstəsnalıq, türk-müsəlman xalqlarına qarşı düşmənçilik ruhu aşılamış, kəskin mənəvi təcavüz kampaniyası apararaq indiki Ermənistan ərazisini yerli azərbaycanlılardan tam təmizləmişlər. Cənubi Qafqazda yaşanan və beynəlxalq hüquqa zidd bütün belə proseslər, insanlığa sığmayan bütün hadisələr dünyadakı erməni diasporu tərəfindən bilərəkdən təhrif edilmiş, dünya ictimaiyyətinin nəzərində "əzabkeş və məzlum" erməni, "zalım" türk-müsəlman və azərbaycanlı obrazları yaradılmışdır.

XX əsrin 80-ci illərinin ikinci yarısında da ermənilər SSRİ-də yaranmış siyasi vəziyyətdən istifadə edib, dərhal Azərbaycana qarşı açıq ərazi iddiası irəli sürmüş, bir neçə günün içərisində Ermənistanda yaşayan 200 minə qədər azərbaycanlını kütləvi şəkildə deportasiyaya məruz qoymuş, ardınca Dağlıq Qarabağın azərbaycanlı icmasına qarşı kütləvi terror və qırğınlar həyata keçirməyə başlamışlar. Ermənistan SSR Ali Soveti 1989-cu il dekabrın 1-də Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi barədə hüquqazidd qərar qəbul etmiş və bununla da Dağlıq Qarabağ probleminin əsl mahiyyətinin Azərbaycana qarşı əsassız ərazi iddialarından ibarət olduğunu nümayiş etdirmişdir. Eyni federativ dövlətdə birləşən bir respublikanın digər respublikaya qarşı ərazi iddiasına heç bir hüquqi reaksiya verilməmiş, əksinə, Sovet İttifaqının o zamankı rəhbərliyinin ermənipərəst siyasəti mövcud vəziyyətin getdikcə kəskinləşməsinə, DQMV ərazisində və Azərbaycanın Ermənistanla həmsərhəd bölgələrində ermənilər tərəfindən azərbaycanlılara qarşı terror, kütləvi qırğın və etnik təmizləmə cəhdlərinin geniş miqyas almasına təkan vermişdir. Qeyd etmək lazımdır ki, Ermənistan Ali Sovetinin həmin qərarı sonra da ləğv edilməmiş, Robert Köçəryan 1989-cu ildə Ermənistan parlamentinin deputatı, 1998-ci ildə isə Ermənistan prezidenti seçilərkən həmin qərarın ona tamhüquqlu Ermənistan vətəndaşlığı verməsi "faktı"na istinad etmişdir. Eyni "hüquq"dan sonradan onun varisi olan Serj Sarkisyan da bəhrələnmişdir.

1992-ci ilin əvvəllərindən Ermənistan silahlı qüvvələri öz təcavüzkar siyasətlərini genişləndirərək Dağlıq Qarabağ və ətraf ərazilərdəki azərbaycanlılar yaşayan bütün yaşayış məntəqələrini birbirinin ardınca işğal etməyə başlamışdır. Qısa zaman kəsiyində Xocavənd, Cəmilli, Meşəli, İmarət-Qərvənd, Kərkicahan, Malıbəyli, Quşçular, Qaradağlı və digər kəndlər zəbt olunmuş, əhalinin bir qismi əsir götürülmüş, onların əmlakı və mal-qarası mənimsənilmişdir.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan dövlətinin nizami hərbi birləşmələri keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının iştirakı ilə aylarla mühasirədə saxlanılan Xocalı şəhərinə hücuma keçərək, bir gecənin içində onu yerlə-yeksan etmişlər. Bu qanlı aksiya zamanı dinc əhaliyə amansızlıqla divan tutulmuş, 613 nəfər qətlə yetirilmiş, meyitlər təhqir olunmuş, 1275 nəfər girov götürülmüşdür. Onlardan 150 nəfərin taleyi hələ də məlum deyil. Qətlə yetirilənlərin 63 nəfəri uşaq, 106 nəfəri qadın və 70 nəfəri qoca idi. Hərbi təcavüz nəticəsində 8 ailə tamamilə məhv edilmişdir.

Xocalı soyqırımını törətməkdə düşmənin məqsədi Azərbaycan xalqını sarsıdaraq onun suverenlik əzmini qırmaq, ərazi bütövlüyü uğrunda apardığı mübarizədən çəkindirmək və torpaqlarını zorla ələ keçirmək idi. XX əsrin sonunda dünyanın gözü qarşısında baş verən, qəddarlığı və amansızlığı ilə xüsusi fərqlənən Xocalı soyqırımı təcavüzkar erməni siyasətinin ən qanlı səhifəsidir. Bu ağır cinayətə görə siyasi-hüquqi məsuliyyət birbaşa Ermənistanın o zamankı və sonrakı rəhbərliyinin, həmçinin Dağlıq Qarabağdakı separatçı rejimin üzərinə düşür.

Ermənistan Xocalı faciəsini törətdikdən sonra Azərbaycana qarşı hərbi təcavüzün miqyasını daha da genişləndirmiş, Dağlıq Qarabağın hüdudlarından kənara çıxaraq daha 7 rayonu işğal etmiş, bir milyona yaxın azərbaycanlını öz doğma eveşiyindən didərgin salaraq qaçqın və məcburi köçkünə çevirmişdir.

**Ardı Səh. 5**

# Xocalı soyqırımının dünyada tanınması tarixi zərurətdir

Əvvəli Səh. 4

Azərbaycan dövləti başda ümummilli lider Heydər Əliyev olmaqla, sonrakı 15 ildə isə Prezident İlham Əliyevin rəhbərliyi ilə Xocalı soyqırımının dünyada tanıdılması, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması, təcavüzkarın ifşası və işğal edilmiş torpaqlarımızın azad olunması üçün bütün zəruri addımları atıb və atmaqdadır. Azərbaycan dövləti belə taleyüklü məsələnin həlli ilə bağlı bütün milli resursların, o cümlədən diaspor qurumlarının imkanlarından həmişə istifadə etmiş, bu istiqamətdə irəli sürülən əksər ictimai təşəbbüsləri dəstəkləmişdir. Son illərdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə dünyada geniş vüsət almış "Xocalıya ədalət!" (Justice for Khojaly) beynəlxalq kampaniyasına Azərbaycanda və xaricdə fəaliyyət göstərən çoxsaylı vətəndaş cəmiyyəti institutları da qoşularaq, ayrı-ayrı ölkələrin dövlət qurumlarını və ictimaiyyətini, beynəlxalq təşkilatları bu faciəyə adekvat qiymət verməyə çağırırlar.

Hazırda:

X dünyanın 13 ölkəsi parlament səviyyəsində,

X ABŞ-ın 22 ştatı parlament səviyyəsində,

X İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını rəsmən tanımışdır.

X Avropa İnsan Haqları Məhkəməsi 2010-cu il 22 aprel tarixli qərarında Xocalının azərbaycanlılardan ibarət mülki əhalisinin qırılmasını "müharibə cinayətləri və ya insanlığa qarşı cinayətlər kimi qiymətləndirilə bilən xüsusilə ağır əməllər" kimi müəyyən etmişdir.

Bundan başqa, Azərbaycanın ərazi bütövlüyü məsələsi və Ermənistanın işğalçı dövlət olması faktı:

X BMT Təhlükəsizlik Şurasının 1993-cü il aprel-noyabr aylarında qəbul etdiyi 822, 853, 874 və 884 nömrəli qətnamələrində,

X ATƏT-in 1996-cı il Lissabon Sammitinin qərarında,

X BMT Baş Assambleyasının 60-cı (2006) və 62-ci (2008) sessiyalarının çıxardığı "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnamələrində,

X AŞPA-nın (2005) qərarında,

X Avropa Parlamentinin (2010) qətnaməsində,

X Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Sammitinin Bəyannaməsində (2017),

X Avropa İttifaqı-Azərbaycan "Tərəfdaşlıq Prioritetləri" razılaşmasında (2018),

X Qoşulmama Hərəkatı dövlət və hökumət başçılarının XVI (Tehran, 2012) və XVII (Marqarita, 2016) sammitlərinin qərarlarında,

X İslam Əməkdaşlıq Təşkilatının (İƏT) dövlət və hökumət başçılarının VII (Mərakeş, 1994), VIII (İran, 1997) və IX konfranslarında (Qətər, 2000) qəbul edilmiş qətnamələrdə, XI (Seneqal, 2008) və XII (Misir, 2013) zirvə toplantılarının yekun sənədlərində, eləcə də İƏT Xarici İşlər Nazirləri Şurasının müxtəlif konfranslarında qəbul edilmiş çoxsaylı qətnamə və yekun sənədlərində,

X ECO-nun 13-cü Sammitinin (İslamabad, 2017) yekun bəyanatında və s. beynəlxalq qurumların qərarlarında Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət ifadə edilmiş, münaqişənin məhz bu prinsiplər əsasında həllinin vacibliyi qeyd olunmuşdur.

X Eyni zamanda, NATO-nun 2006-cı ildən bəri keçirilən əksər zirvə toplantılarının, o cümlədən Nyuport (2014), Varşava (2016) və Brüssel (2018) sammitlərinin yekun kommunikelərində Cənubi Qafqazdakı münaqişələrin ölkələrin ərazi bütövlüyü, suverenliyi və Helsinki Yekun Aktına əsaslanaraq həlli prinsipinin öz əksini tapması Azərbaycanın mənafeyinə cavab verir.

Bütün bunlara baxmayaraq, hazırda Ermənistan beynəlxalq hüquq normalarını pozaraq öz işğalçılıq siyasətini davam etdirir və Cənubi Qafqazda dayanıqlı sülhün bərqərar olmasına ciddi maneçilik törədir. Həmçinin dünyadakı erməni diasporu və lobbisi Dağlıq Qarabağ problemini, Ermənistan dövlətinin işğalçılıq siyasətini, evindən qovulmuş bir milyona yaxın azərbaycanlının böyük faciəsini, Azərbaycan torpaqlarının işğal altında saxlanması faktını, Xocalı qətliamını və bu qəbildən olan digər qanlı cinayətləri unutdurmaq, diqqətdən kənarda saxlamaq məqsədilə xüsusən də bizim fəallaşdığımız ildönümü tədbirləri zamanı, davamlı olaraq, 1915-ci il hadisələrini gündəmə gətirib qardaş Türkiyəyə qarşı qondarma "erməni soyqırımı" iddiası qaldırırlar.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəhbərlik etdiyi AKP hakimiyyətə gəldikdən sonra ilk atdığı addımlardan biri 1915-ci il hadisələri ətrafında aparılan kampaniyanın qərəzini ifşa etmək olmuş, qardaş ölkə bu yöndə bir çox beynəlxalq tədbirlərin təşəbbüsçüsü və ev sahibi kimi çıxış etmişdir. Təəssüf ki, Prezident Ərdoğanın tarixin obyektiv araşdırılması üçün arxivlərin açılması və birgə komissiyaların təşkili haqqında çağırışları əks tərəfdən dəstək almamışdır. Bu gün Türkiyə və Azərbaycan prezidentləri həm ölkələrimizin daxilində, həm də beynəlxalq müstəvidə türk-müsəlman dünyasının maraqlarının müdafiəsi, problemlərinin həlli naminə nümunəvi birgə fəaliyyət, həmrəylik nümayiş etdirirlər.

Bu həmrəylikdən örnək götürərək həm Azərbaycanın, həm də qardaş Türkiyənin vətəndaş cəmiyyəti təşkilatları, əli qələm tutan bütün ziyalıları rəsmi dövlət orqanlarının həyata keçirdiyi tədbirlərə hər cür dəstək verməklə Xocalı soyqırımı və Azərbaycan torpaqlarının işğalı, eləcə də 1915-ci il hadisələri ilə bağlı gerçək faktları dünya ictimaiyyətinin diqqətinə çatdırmalı, tarixin obyektiv qavranılmasına və adekvat hüquqi-siyasi qiymətinin almasına çalışmalıdırlar. Ümumiyyətlə, bu işləri daha fəal, davamlı və sistemli şəkildə həyata keçirməklə biz mütləq nəticələr əldə edə bilərik.

Bu məqsədlə Azərbaycan və türk diaspor təşkilatları da öz çevikliyini və mütəşəkkilliyini artırmalı, əlaqələndirilmiş şəkildə fəaliyyət göstərməlidir. 2007-ci ilin noyabrında Türkiyə və Azərbaycan prezidentlərinin birgə təşəbbüsü ilə Bakıda keçirilmiş Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, azərbaycanlılara qarşı erməni işğalçıları tərəfindən törədilmiş soyqırımı, terror aktları və digər cinayətlərin beynəlxalq miqyasda ifşası istiqamətində türkdilli ölkələr və icmalar tərəfindən birgə tədbirlərin görülməsi haqqında tövsiyələrin həyata keçirilməsi ilə bağlı fəaliyyətlərini genişləndirməlidirlər.

Təəssüf ki, bəzi dövlətlər qondarma "erməni soyqırımı" haqqında əsassız qərarlar qəbul ediblər. Biz həmin ölkələrdə də ardıcıl iş aparmalı, onların vətəndaş cəmiyyətləri ilə işləməyin məqbul səmərəli üsullarını tapmalıyıq. Soydaşlarımız yerli və beynəlxalq ənənəvi media, eləcə də sosial şəbəkələr vasitəsilə geniş kampaniyalar təşkil etməli, soyqırımı problemlərini, o cümlədən Xocalı faciəsinə dair real faktları elmi konfranslarda, simpoziumlarda və digər toplantılarda təqdim etməlidirlər.

Məlumdur ki, münaqişənin nizama salınması üçün aparılan danışıqlarda da Ermənistan qeyri-konstruktiv mövqedən çıxış edərək işğalçılıq siyasətindən əl çəkmir. Digər tərəfdən isə, BMT və ATƏT kimi beynəlxalq təşkilatların öz təklif və qətnamələrini həyata keçirmək üçün konkret fəaliyyət göstərməməsi danışıqlar prosesində irəliləyişin əldə olunmasına maneə törədir. Bununla yanaşı, keçən 27 il ərzində ATƏT çərçivəsində yaradılan Minsk qrupu və bu qrupa həmsədrlik edən dövlətlər "ikili standartlar" prinsipindən çıxış edərək, münaqişənin ədalətli həll olunması üçün Ermənistana qarşı heç bir təzyiq göstərmək niyyətində olmamışlar.

Buna baxmayaraq, Azərbaycan dövləti beynəlxalq təşkilatların, xüsusilə də münaqişəni dinc vasitələrlə nizama salmaq üçün fəaliyyət göstərən ATƏT-in sülhyaratma təkliflərinə hörmətlə yanaşaraq onun işində müntəzəm və əməli şəkildə iştirak edir. Bu da münaqişənin nizama salınması istiqamətində aparılan danışıqlarda Azərbaycanın, ilk növbədə, sülh variantına üstünlük verdiyinə sübutdur.

Münaqişənin nizama salınmasında Azərbaycanın tutduğu mövqe birmənalıdır. Yəni, problem yalnız Azərbaycanın ərazi bütövlüyü və ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həllini tapmalıdır. Bu mövqe beynəlxalq hüququn normaları və prinsipləri, BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və münaqişənin nizamlanması istiqamətində qəbul edilmiş çoxsaylı beynəlxalq sənədlərə əsaslanır. Eyni zamanda, münaqişənin dinc vasitələrlə nizama salınması istiqamətində bütün beynəlxalq təşkilatların qəbul etdiyi sənədlər Azərbaycanın mövqeyinin bir daha gücləndirilməsi və məsələnin beynəlxalq hüququn prinsipləri əsasında həllinin təsdiqlənməsi deməkdir.

Bu səbəbdən, Qarabağ həqiqətləri haqqında dünya ictimaiyyətinin məlumatlandırılması istiqamətində keçirilən tədbirlərin coğrafiyasını genişləndirməli və Ermənistanın işğalçılıq siyasətinin beynəlxalq aləmdə ifşa edilməsinə nail olmaq üçün bütün qüvvələrimizi birləşdirərək bundan sonra da daha ciddi çalışmalı, Azərbaycan dövlətinin bu istiqamətdə apardığı siyasətə öz töhfəmizi verməliyik.

# YAP Yasamalda "Soyqırımı tarixinin dastanı" mövzusunda tədbir keçirilib

***Dünən YAP Yasamal rayon təşkilatında Xocalı soyqırımının 27-ci ildönümünə həsr edilmiş tədbir keçirilib. Tədbirdən öncə, YAP Yasamal rayon təşkilatında Ulu Öndər Heydər Əliyevin xatirəsinə ucaldılmış büstün qarşısına gül-çiçək dəstələri düzülüb.***



Sonra tədbir iştirakçıları gənc rəssamların Xocalı soyqırımına həsr etdikləri əsərlərlə tanış olublar.

Tədbir konfrans zalında davam etdirilib. Tədbirdə Azərbaycan Milli Konservatoriyasının xor kopellası Azərbaycan Respublikasının Dövlət Himnini səsləndiriblər. Sonra Xocalı soyqırımında şəhid olmuş insanlarımızın xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Xor kopellasının Xocalı soyqırımına həsr olunmuş ifasından sonra, səhnəyə İncəsənət Gimnaziyasının tələbələri çıxaraq, "Soyqırımı tarixinin dastanı" mövzusunda ədəbi-bədii kompozisiya ilə çıxış ediblər.

Anım tədbirlərində çıxış edən YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədova verilib. Çıxış edən Tağı Əhmədov bildirib ki, Xocalı soyqırımı XX əsrin ən qanlı bəşər faciəsidir və bu tarixi yalnız öz günündə deyil, bütün günlərdə xatırlanmalı, yaddaşlara həkk olunmalıdır.

Xocalı soyqırımının baş verdiyi tarixə və həmin illərin siyasi vəziyyəti barədə də danışan YAP Yasamal rayon təşkilatının sədri qeyd edib ki, artıq bir sıra xarici dövlətlər faciəni soyqırımı kimi tanıyırlar. "Buna baxmayaraq, hər bir azərbaycanlı 2008-ci ildən start götürmüş "Xocalıya ədalət!" kampaniyasına qoşulmalı, xüsusilə, gənc nəsil bu işdə fəallıq göstərməlidir" deyə qeyd edən Tağı Əhmədov onu da bildirib ki, işğalçı Ermənistan qondarma erməni soyqırımının dünya dövlətləri tərəfindən tanınması ətrafında uzun illərdir ki, fəaliyyət göstərir, lakin bir neçə ölkədən başqa onların bu saxta iddialarını tanıyan yoxdur: "Əlimizdə faktlar, danılmaz sübutlar var və biz, Xocalı soyqırımının tanıdılması, onun gənc və yeniyetmə nəsillərimizə çatdırılması üçün var qüvvəmizlə çalışmalıyıq. Əbəs deyil ki, bu faciəyə əsas siyasi qiyməti, məhz Ulu Öndər Heydər Əliyev verib. Məhz bundan sonra dünya dövlətləri Xocalıda baş vermiş dəhşətlərin əsl tərəflərini görməyə başlayıblar. Bu gün Prezident İlham Əliyev cənabları həmin istiqamətdəki fəaliyyətini davam etdirir. Bizi qarşıda 60 minlik Xocalı yürüşü gözləyir və bu yürüşdə iştirak etmək hər birimizin vətəndaşlıq borcudur".

Tağı Əhmədov sonda tədbirdə iştirak edən gənclərə və yeniyetmələrə öz təşəkkürünü çatdıraraq, onların hər birinin gələcək nəsillərə bu qan yaddaşını çatdıracaqlarını vurğulayıb.

**Rövşən RƏSULOV**

# “Xocalı soyqırımını unutmadıq!” adlı tədbir keçirilib











*Dünən Yeni Azərbaycan Partiyasının Mərkəzi Qərargahında “Xocalı soyqırımını unutmadıq!” adlı keçirilən tədbirdə deyib.*

SİA-nın verdiyi məlumata görə, tədbirdə hakim Yeni Azərbaycan Partiyasının (YAP) Sədr müavini - İcra katibi, Baş nazirin müavini Əli Əhmədov, İcra katibin müavinləri Siyavuş Novruzov, Mübariz Qurbanlı, “Azərbaycan” qəzetinin baş redaktoru, millət vəkili Bəxtiyar Sadıqov, YAP-ın fəal gəncləri və KİV nümayəndələri iştirak edib. YAP-ın sədr müavini bildirib ki, Xocalı soyqırımı ən qanlı hadisələrdən biridir: “Bir gecənin içində erməni daşnakları ölkəmizin bir şəhərinin əhalisini tamamilə məhv edib, dinc əhaliyə amansızlıqla divan tutub, 613 nəfər qətlə yetirilib, meyitlər təhqir olunub, 1275 nəfər girov götürülüb. Onlardan 150 nəfərin taleyi hələ də məlum deyil. Qətlə yetirilənlərin 63 nəfəri uşaq, 106 nəfəri qadın və 70 nəfəri ahıl qoca idi. Hərbi təcavüz nəticəsində 8 ailə tamamilə məhv edilib. Bu dəhşətli faciə bir gecənin içində baş verib. Bu dəhşətli hadisə heç vaxt unudulmayacaq”.




İcra katibi qeyd edib ki, Azərbaycan xalqı qısasçı olmayıb, heç vaxt qisasçılıq aşılanmayıb: “Biz insanları, xüsusilə də gəncləri qisasçılığa yönəltmirik. İstəyirik, bu qətliamı törədənlər cəzalandırılsın. Qarşımızda duran vəzifə budur. Bir xalq, millət olaraq buna nail olacağıq. Biz bu faicəni dünyaya tanıtmalıyıq. Bu istiqamətdə müvafiq işlər görülüb. Zaman keçdikcə bu faciəni tanıyan dövlətlərin sayı artacaq. Bu faciəni törədənlərə insan demək olmaz. Bu soyqırımı erməni silahlı qüvvələri, onların havadarları törədib, məsuliyyəti birbaşa onlar daşıyır”.

Ə.Əhmədov vurğulayıb ki, ölkənin sərhədlərini qorumaq üçün dövlət güclü olmalıdır: “Dövlət güclü olmazsa, insanları qoruya bilməz. 1990-cı illərdə torpaqların işğalının bir səbəbi ermənilərin işğalçılıq siyasəti idisə, digər səbəb isə dövlətin zəif olması idi”. “Azərbaycan” qəzetinin baş redaktoru, millət vəkili Bəxtiyar Sadıqov bildirib ki, Xocalı soyqırımı ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş ən dəhşətli cinayətlərdən biridir. Qeyd edib ki, bu gün Azərbaycan dövləti Ermənistanın cinayətkar əməllərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində mühüm işlər görür. Sonda hadisə şahidləri, gənclər çıxış edərək faciə haqqında təəssüratlarını tədbir iştirakçıları ilə bölüşüblər.

**Ceyhun Rasimoğlu**

## Gürcüstan Prezidenti Azərbaycana səfərə gələcək

Gürcüstan Prezidenti Salome Zurabişvili fevralın 27-də Azərbaycana rəsmi səfər edəcək. SİA-nın məlumatına görə, bu barədə Gürcüstanın Azərbaycandakı səfirliyindən bildiriblər. İkigünlük səfər zamanı S.Zurabişvili ölkə rəsmiləri ilə bir sıra görüşlər keçirəcək, ikitərəfli əməkdaşlığın aktual məsələlərini müzakirə edəcək. Qeyd edək ki, bu, onun ölkə Prezidenti seçilməsindən sonra ilk regional səfəridir.



## DSX: İrandan Azərbaycana Xəzər dənizi ilə qaçaq yolla heroin gətirilməsinin qarşısı alınıb

Dövlət Sərhəd Xidməti (DSX) əməkdaşlarının sayıqlığı nəticəsində 185 qram narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, fevralın 19-da Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin Lənkəran rayonunun Vel kəndinin ərazisində Xəzər dənizindən 30 metr məsafədə sahildə sərhəd naryadı tərəfindən içərisində iki nəfərin olduğu avtomobilin əraziyə yaxınlaşması müşahidə edilib. Avtomobildən bir nəfər düşərək əraziyə yaxınlaşıb və orada gizli saxlanc yerindən gizlədilmiş əşyanı götürərək hadisə yerindən uzaqlaşmağa cəhd edib. Avtomobildə olan hər iki nəfər sərhəd naryadı tərəfindən şübhəli şəxs qismində saxlanılıb. Baxış zamanı 185 qram heroin aşkarlanaraq götürülüb.



Saxlanılan şəxslərin Lənkəran rayon sakinləri 1963-cü il təvəllüdlü Dadaşov Allahverdi Fərman oğlu və 1974-cü il təvəllüdlü Bağırov Vüqar Mirzağa oğlu olması müəyyənləşdirilib. Araşdırma zamanı A.Dadaşov əvvəllər narkotik vasitələrin istifadəsinə görə məhkum olunaraq cəza çəkməsini və narkotik vasitənin Xəzər dənizindən qaçaq yolla İran İslam Respublikasından Azərbaycan Respublikasına gətirilməsini etiraf edib. Fakt üzrə başlanılmış cinayət işi üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

## Erməni gənclər orduda xidmətdən yayınırlar

Ermənistanda hər il 10 mindən çox gənc orduda xidmətdən yayınır və hüquq-mühafizə orqanları onların hamısı barəsində axtarış elan ediblər. AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, bu bəyanatı jurnalistlərə müsahibəsində Ermənistan parlamentinin müdafiə və təhlükəsizlik məsələləri komitəsinin sədri Andranik Koçaryan səsləndirib.



Erməni deputatın sözlərinə görə, valideynlər uşaqlarını hərbi xidmətdən yayındırır və bununla da ölkənin müdafiə qabiliyyətinə zərbə vururlar. O əlavə edib ki, 27 yaşına qədər bu gənclər orduda xidmətdən yayınır, sonra meydana çıxaraq pul ödəyirlər və cinayət məsuliyyətindən azad edilirlər. Deputat bildirib ki, qanunlar elə olmalıdır ki, hər bir vətəndaş orduda xidmət etsin. “Bir çoxları övladlarını orduda xidmətdən yayındırmaq məqsədilə hamilə qadınlarını uşaq doğmaq üçün ABŞ-a aparır və avtomatik olaraq həmin ölkənin vətəndaşı edirlər. Bundan başqa, orduda xidmətdən yayınan 27 yaşdan yuxarı oğlanlar üçün mini-amnistiya sayılan pul müqabilində cinayət məsuliyyətdən azad olunma təcrübəsini də addımbaşı tətbiq etmək düzgün deyil”, -deyə Koçaryan vurğulayıb.

Ermənistan Müdafiə Nazirliyinin məlumatına görə, 2003-cü ildən etibarən orduda xidmətdən yayınan 9985 çağırışçı hərəyə 29,6 min dollar ödəyərək cinayət məsuliyyətindən azad edilib.

# DSX-nin rəisi “Master Cup”un qalibləri ilə görüşüb





2019-cu ilin fevral ayının 08-10 tarixlərində İran İslam Respub-likasının Tehran şəhərində baş tutmuş karate idman növü üzrə “Master Cup” beynəlxalq turnirində böyük qələbələr qazanmış “Sərhədçi” idman-olimpiya mərkəzinin idmançıları bu gün Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev tərəfindən qəbul ediliblər. Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən SİA-ya verilən məlumata görə, görüşdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevinalı diqqəti sayəsində Azərbaycan idmanının yüksələn xətt üzrə inkişaf etməsi, milli idmançılarımızın olimpiya oyunlarında və digər mötəbər idman yarışlarında ölkəmizi ən yüksək səviyyədə təmsil etmələrini, Azərbaycan sərhədçilərinin də bu sahəyə töhfə verməyə çalışmaları qeyd olunmuşdur.



İdmançıları möhtəşəm qələbələr münasibətilə təbrik edən general-polkovnik Elçin Quliyev Azərbaycan Respublikasının Birinci Vitse-Prezidenti Mehriban xanım Əliyeva tərəfindən Zəhra Salmanlının uğurlu çıxışının və vətənpərvərlik nümunəsinin yüksək qiymətləndirilərək hədiyyə ilə təltif ləndirilməsinin Azərbaycan dövlətinin gənc idmançıların inkişafına olan diqqət və qayğısının növbəti ifadəsi olmasını xüsusi vurğulayıb.

“Sərhədçi” idman-olimpiya mərkəzinin rəisi polkovnik E.Mirzəyev idman mərkəzində 26 idman növü üzrə komandaların fəaliyyət göstərməsini, gənc idmançıların təkcə fiziki hazırlığına deyil, həmçinin tədrisinə, Vətənə məhəbbət ruhunda tərbiyəsinə xüsusi diqqət yetirilməsini, 1600 nəfərdən çox idmançının iştirakı ilə Tehran şəhərində keçirilmiş karate üzrə sonuncu “Master Cup” turnirində ölkəmizi təmsil edən “Sərhədçi” idman klubunun 12 idmançısından 7-nin qızıl, 3-nün gümüş, 2-nin bürünc medal qazanmasını, komandamızın ümumi hesabda 2-ci yer tutmasını, turnir zamanı idmançılarımızın Ermənistandan olan 4 rəqiblərini məğlub etmələrini məruzə edib.

Ən yüksək nəticə ilə Ermənistandan olan rəqibini mütləq üstünlüklə məğlub edərək turnirin qalibi olmuş 10 yaşlı Zəhra Salmanlının, Elnaz Soltanlının, Ülvira Rüstəmlinin və digər idmançılarımızın Azərbaycan Respublikasının dövlət bayrağının Ermənistan bayrağından aşağıda asılmasına dərhal reaksiya verməlЕərinin, dövlət bayrağımıza qarşı bu hörmətsizliyin aradan qaldırılmayacağı halda komandamızın turnirdə iştirakdan imtina etməsinin bildirilməsinin və nəticədə bu xoşagəlməz halın aradan qaldırılmasının təmsilçilərimizin vətənpərvərliyinin, Vətənə olan sevgisinin göstəricisi, dövləti maraqların müdafiəsinə əsl sərhədçi sədaqətinin ifadəsi olması qeyd edilib.

Turnir zamanı Azərbaycan Respublikasının dövlət himnini 7 dəfə səsləndirmiş, 12 dəfə dövlət bayrağımızı yüksəltmiş idmançılar Dövlət Sərhəd Xidmətinin rəisi tərəfindən “Fəxri Fərmanla”, komandanın məşqçisi Səfərov Zöhrab Həsən oğlu “Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə” medalı ilə təltif edilib, hər bir idmançıya Azərbaycan Respublikasının dövlət bayrağı və sərhədçi bereti hədiyyə edilib.

Turnirdə ölkəmizi təmsil etmiş heyətlə çay süfrəsi arxasında keçən səmimi söhbət zamanı “Sərhədçi” idman klubunun idmançılarının gələcək planları, iştirak edəcəkləri turnirlər, məşq şəraiti və digər məsələlər müzakirə olunub, gənc idmançılara hərtərəfli dəstəyin göstərilməsi barədə tapşırıqlar verilib.



# “Kaspi” liseyində Xocalı faciəsi ilə əlaqədar anım tədbiri keçiriib



“Kaspi” liseyinin Ağ şəhər filialında Respublika Veteranlar Təşkilatının nümayəndələrinin, Böyük Vətən müharibəsi veteranlarının, liseyin müəllim və şagird kollektivinin iştirakı ilə Xocalı faciəsinin 27-ci ildönümünə həsr olunmuş tədbir keçirilib. SİA-nın məlumatına görə, əvvəlcə şagirdlərin Xocalı faciəsinə həsr edilmiş əl işlərindən ibarət sərgi nümayiş etdirilib. Sərgidə nümayiş etdirilən rəsmlər veteranlarda dərin təəssuratlar oyadıb.

Daha sonra tanınmış yazıçı, publisist Hüseynbala Mirələmovun “Xəcalət” povesti əsasında hazırlanmış kompazisiya nümayiş etdirilib. Şagirdlər ifaları ilə öz dədə-baba yurdlarından didərgin düşmüş soydaşlarımızın vətən nisgilini, el-oba həsrətini və düşdükləri çərəsiziyi gözlər önünə gətirdi. Səhnə əsərində müharibənin yaratdığı faciələr bir ailənin timsalında verilmiş və qaçqınlığın bu gün dünyanı narahat edən probleme çevrilməsinə xüsusi diqqət yetirilmişdir. Kompozisiya yadda qalan olmuşdur.

Tədbirdə Kaspi” Təhsil Şirkətinin təsisçisi və idarə heyətinin sədri Sona xanım Vəliyeva Xocalı faciəsinin 27-cü ildönümü ərəfəsində rellaşan tədbirin məqsədi barədə məlumat verib. S.Vəliyeva gənclərimizin, o cümlədən şagirdlərin Azərbaycan ilə bağlı tarixi həqiqətləri, xalqımıza qarşı törədilən faciələri dərindən bilmələri, milli yaddaşımızın möhkəmlənməsi baxımından belə tədbir və görüşlərin əhəmiyyətini xüsusi vurğulayıb. Ermənilərin xalqımıza qarşı törətdikləri faciələri, qətliamları “dənizdən dənizə böyük Ermənistan” xülyasının reallaşdırılması planının tərkib hissəsi olduğunu diqqətə çatdırıb.

S.Vəliyeva Xocalı faciəsinin araşdırılmasının və qan yaddaşımıza həkk olunmasının gənclərin milli ruhda yetişməsi baxımından vacibliyini qeyd edərək bildirib ki, hər bir gəncin Vətən, dövlət qarşısında vətəndaşlıq borcu var. Gənclərimiz onların təhsil almaları üçün yaradılan şəraitdən istifadə edib vətənpərvər şəxslər kimi yetişməlidirlər. Onlar ölkəmizin ərazi bütövlüyünün bərpası üçün torpaqlarımızı hər an işğaldan azad etməyə hazır olmalıdırlar.

Bu qətliam haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırım kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl işlərin aparıldığını vurğulayan S.Vəliyeva faciəyə ilk siyasi-hüquqi qiymətin ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra verildiyini bildirib. Diqqətə çatdırıb ki, 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti fevralın 26-sını Xocalı Soyqırımı Günü elan edib. Sonrakı dövrdə də Ulu Öndər Xocalı faciəsi ilə bağlı bir neçə sərəncam imzalayıb. Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan dövlətinin, həmçinin Heydər Əliyev Fondunun son illərdə həyata keçirdikləri tədbirlərin əhəmiyyətini xüsusi qeyd edən “Kaspi” Təhsil Şirkətinin təsisçisi ardıcıl fəaliyyət nəticəsində son illərdə dünyanın ondan çox ölkəsinin Xocalı soyqırımını tanıdığını vurğulayıb.

Respublika Veteranlar Təşkilatının sədr müavini Cəlil Xəlilov Xocalı soyqırımı haqqında tədbir iştirakçılarına geniş məlumat verib, Soyqırımın tanınmasında dövlətimizin apardığı ardıcıl və məqsədyönlü siyasətdən danışıb. Gələcəkdə belə halların təkrarlanmaması üçün gənclərin elmə təhsilə yiyələnməsinin vacibliyini qeyd edib. “Azərbaycanda gənclərimizin vətənpərvərlik ruhunda tərbiyəsinə xüsusi diqqət yetirilir. Torpaqlarımızın işğaldan azad edilməsi üçün Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən ardıcıl və qətiyyətli iş aparılır. Azərbaycanın güclü ordusunun yaradılması, müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi, veteranlara qayğı məhz bu fəaliyyətin nəticələridir.

Biz düşmənə layiqli cavab verməyi bacarırıq. Belə şərəfli missiyanı isə yalnız vətənpərvər insanlar yerinə yetirə bilər. Bu gün gənclərimizin milli ruhda yetişməsi bizi sevindirir. Veteranlar Təşkilatı da yeniyetmə və gənclərimizin milli mənəvi dəyərlərimizə sədaqət ruhunda yetişmələri üçün ardıcıl işlər görür. Veteranlarla gənclərin görüşləri təşkil edilir, onların vətənpərvər ruhda tərbiyəsi məqsədi ilə əməli tədbirlər həyata keçirilir. Veteranlar məktəblərdə keçirilən hərbi dərslərdə aktiv iştirak edir.

Biz düşməndən güclüyük və bu gücü qoruyub daim saxlamaq üçün elmə yiyələnməliyik. Bunun üçün siz üzərinizə düşən məsuliyyəti anlamalı və dərslərinizə daha da məsuliyyətlə yanaşmalısınız”. Sonra Böyük Vətən müharibəsi veteranı Ulduz Səttarov çıxış edib. Tarixin ən qanlı müharibəsini görmüş bir döyüşçü kimi gənclərə tövsiyyələr verib. Onlara vətəni sevməyin vacibliyini bildirib. O həmçinin: “Biz Böyük Vətən müharibəsində faşizmi gördük və onun acılarını yaşadıq. Faşizmi yer üzündən silmək, azadlıq və vətən üçün döyüşdük, canımızı, gəncliyimizi bu yolda fəda etdik. Müharibə bitdiyində biz faşizmi tamamən məhv edə bilmədik. Daha qəddar olan erməni faşizminin 1992-ci ildə fevralın 26-da bir daha şahidi olduq. Mən sizə qətiyyətlə bildirirəm ki, Erməni faşizmi daha qəddar və daha amansız olmuşdu. Onarın murdar xislətinin misli bərabəri olmamışdır”. Sonra Respublika Veteranlar Təşkilatının Rəyasət Heyətinin qərarı ilə Kaspi” liseyinin təhsildə fərqlənən müəllim və şagirdlərinə fəxri fərmanlar təqdim olunub, xatirə şəkli çəkdirilib.

# Xocalıya ədalət!” beynəlxalq kampaniyası Xocalı soyqırımı barədə həqiqətlərin dünyada tanıdılmasında mühüm rol oynadı

## *Birinci vitse-prezidentin köməkçisi, Prezident Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyevin yap.org.az-a müsahibəsi*

***- Yusuf müəllim, Azərbaycan Respublikasının dinamik inkişafı, ictimai həyatın bütün sahələrində əldə edilən nailiyyətlər dövlət gənclər siyasətində də özünü bariz şəkildə göstərir. Bu mənada, Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətinin prioritetləri nədən ibarətdir?***

-Gənclər siyasəti Azərbaycan dövlətinin həyata keçirdiyi daxili siyasətin mühüm tərkib hissəsidir. Bu siyasətin əsas məqsəd və prinsipləri, istiqamətləri, həmçinin dövlətin üzərinə düşən vəzifələr “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu və bu sahədəki digər normativ-hüquqi aktlarla müəyyən olunur. Gənclərin hərtərəfli inkişafı üçün zəruri olan şəraitin yaradılması, bu baxımdan dövlətin üzərinə düşən vəzifələrin səmərəli şəkildə yerinə yetirilməsi məsələsi daim ölkə rəhbərliyinin, şəxsən Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət mərkəzindədir. Bu diqqətin nəticəsidir ki, bu gün Azərbaycanda gənclərin inkişafının təmin edilməsi üçün dövlət tərəfindən davamlı şəkildə fəaliyyət həyata keçirilir, gənclərlə iş sahəsində qanunvericilik bazası təkmilləşdirilir, sosial infrastruktur yaradılır, gənclərin elmi və yaradıcılıq potensialının aşkara çıxarılması və inkişaf etdirilməsi, bu potensialın ölkəmizin sosial-iqtisadi inkişafı, dövlətimizin siyasi, iqtisadi, hərbi qüdrətinin, beynəlxalq nüfuzunun artırılması, xalqımızın rifah səviyyəsinin daha da yüksəldilməsi uğrunda səfərbər edilməsi istiqamətində ardıcıl tədbirlər görülür.

Hazırda Bakıda və rayonlarda yerləşən 40-a yaxın Gənclər Evi, demək olar ki, bütün rayonlarda fəaliyyət göstərən Olimpiya kompleksləri, yaradıcılıq mərkəzləri və s. gənclərin ixtiyarındadır. Gənclərin ictimai fəallığının artırılması, ölkənin ictimai həyatına onların daha yaxından cəlb edilməsi məqsədilə yaradılan və vətəndaş cəmiyyətinin mühüm tərkib hissəsi olan ictimai birliklərin fəaliyyəti dövlət tərəfindən hərtərəfli dəstəklənir. Keçən il Nizamnaməsində edilən dəyişikliklərlə fəaliyyət sahəsi və imkanları daha da genişləndirilən Gənclər Fondu gənclərin, xüsusilə az təminatlı ailələrdən olan gənclərin təhsil almalarının, təhsillərini



xaricdə davam etdirmələrinin dəstəklənməsi, ali və orta ixtisas təhsili müəssisələrini bitirmiş gənclərin işlə təmin olunma baxımından qarşılaşdıqları problemlərin həll edilməsi, gənclər arasında sahibkarlıq və özünüməşğulluğun təşviq edilməsi və dəstəklənməsi kimi bir sıra istiqamətlərdə təqdirəlayiq fəaliyyət həyata keçirir. Bütün bu fəaliyyətlər xalqımız tərəfindən rəğbətlə qarşılanır, yüksək qiymətləndirilir.

Burada mən diqqəti bir məsələyə cəlb etmək istərdim. Bildiyiniz kimi, Ulu Öndərimiz Heydər Əliyevin 1969-cu ildə Azərbaycanın rəhbəri seçilməsindən sonra respublikamızın həyatında yeni bir dövr başladı. Bu dövr Azərbaycanın Sovet İttifaqının geridə qalmış aqrar əyalətindən ən qabaqcıl aqrar-sənaye, neft-kimya, maşınqayırma mərkəzlərindən birinə çevrilməsi, elm və təhsilin, mədəniyyətin, ədəbiyyatın, incəsənətin sürətli inkişafı ilə əlamətdar oldu. Heydər Əliyevin yorulmaz fəaliyyəti bir çox onilliklər üçün Azərbaycanın inkişaf yollarını, istiqamətlərini müəyyən etdi. Azərbaycanda bu gün həyata keçirilən gənclər siyasətinin də əsası əslində Ulu Öndərimiz Heydər Əliyev tərəfindən həmin dövrdə qoyulmuşdur. Müstəsna tarixi şəxsiyyət kimi, dövrünün digər siyasətçilərdən və dövlət rəhbərlərindən Heydər Əliyevin fərqi ondan ibarət idi ki, O millilikyin, milli-mənəvi dəyərlərin və mədəni-tarixi irsin qorunub-saxlanılmasını, inkişafını təşviq və təqdir etməyən şərait və şərtlər daxilində belə, bunların qorunub-saxlanılmasına, gənc nəslin məhz bu dəyərlər əsasında yetişdirilməsi, xalqımızın əsrlər boyu yaratdığı mədəni-ədəbi irsimizə sahib çıxmasına şərait yaratmağa nail olmuşdu. Buna əmin olmaq üçün həmin dövrdə Azərbaycanda yaradılmış sənət əsərlərinə, xalqımızın yetişdirdiyi dahi şəxsiyyətlərin şərəfinə ucaldılmış abidələrə baxmaq, tarixi qəhrəmanlarımız haqqında çəkilmiş filmlərin, yazılmış bədii və elmi-tədqiqat əsərlərinin siyahısına nəzər salmaq kifayətdir. Heç də sirr deyildir ki, bütün bu fəaliyyətin ünvanı ilk növbədə gənclər idi və bunu nəzərə alaraq, dövlətimizin müasir gənclər siyasətinin əsasının məhz ötən əsrin 70-ci illərində Ulu Öndər tərəfindən qoyulduğunu əminliklə söyləmək olar.

İkinci bir tərəfdən, mən yenə həmin illərdə Heydər Əliyevin Azərbaycan gənclərinin müasir tələblər səviyyəsində təhsil almasına verdiyi diqqəti vurğulamaq istərdim. Məhz bu diqqət və Ulu Öndərin göstərdiyi yorulmaz səylər öz nəticəsini verdi: Azərbaycan gəncləri Bakıda imtahan verməklə SSRİ-nin aparıcı ali məktəblərində Respublikamız üçün ayrılmış xüsusi kvotalar üzrə təhsil almaq imkanı əldə etdilər. Sovet hərbi-təhsil sistemi üçün də inanılması çətin olan hadisə Azərbaycanda baş verdi: SSRİ-nin qeyri-slavyan respublikalarında ilk hərbi lisey - Cəmşid Naxçıvanski adına hərbi məktəb fəaliyyətə başladı ki, bu gün Azərbaycan Ordusunun general-zabit heyətinin əsasını bu liseyin məzunları təşkil edirlər. Liseyə məşhur sovet sərkərdələrindən birinin deyil, məhz Azərbaycan xalqının yetişdirdiyi hərbi xadimin adının verilməsi də, Heydər Əliyevin gənclərin milli-mənəvi dəyərlər əsasında yetişdirilməsinə verdiyi diqqətin təzahürü və sübutu kimi qiymətləndirilə bilər.

Bütün bunları xatırlatmaqda məqsədim, Ulu Öndərin gənclərin tərbiyəsi üzrə müəyyən etdiyi iki əsas, gənclər siyasətinin ana xəttini təşkil edən amilləri vurğulamaqdır: yüksək, müasir tələblərə cavab verən təhsil və milli-mənəvi dəyərlərə əsaslanan vətənpərvərlik tərbiyəsi. Bu amillər bu gün də Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətinin əsasını təşkil edir.

***- Bildiyimiz kimi, fevralın 1-də Bakıda 2 Fevral - Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısı keçirildi. Toplantıda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva iştirak etdilər. Cənab Prezident toplantıda dərin məzmunlu nitq söylədi. Sizcə, dövlətimizin başçısının toplantıda verdiyi tövsiyələr Azərbaycan gəncliyinin qarşısında hansı vəzifələri qoyur?***

-Hər şeydən əvvəl qeyd etmək istərdim ki, dövlət başçımızın yalnız birbaşa gənclərə ünvanlanan çıxışlarında deyil, ölkəmizin ictimai-siyasi, iqtisadi həyatına, təhsil, elm, mədəniyyət və s. məsələlərə həsr edilmiş çıxışlarının əksəriyyətində gənclərlə iş sahəsində göstərilən fəaliyyət, əldə edilmiş nəticələr, qarşıda duran vəzifələr və tələblərdən danışılır, aktual məsələlərə toxunulur. Bu hər şeydən əvvəl, Prezident tərəfindən gənclər siyasətinə verilən əhəmiyyətin göstəricisi, eyni zamanda, gəncliyin hərtərəfli inkişafına onun tərəfindən göstərilən diqqət və qayğının təzahürü kimi qiymətləndirilməlidir.

Gənclər gününə həsr edilmiş respublika toplantısındakı çıxış isə, əlbəttə ki, proqram xarakterli idi və düzgün olaraq qeyd etdiyiniz kimi, Azərbaycan gəncliyinin qarşısında duran vəzifələrin ardıcıllıqla, ölkəmizin və xalqımızın inkişafı və çiçəklənməsi istiqamətində mövcud və perspektiv prioritetlər kontekstində müəyyən edilməsi və gəncliyin diqqətinə çatdırılması məqsədi daşıması ilə fərqlənir.

Cənab Prezident öz çıxışında müstəqil dövlətdə yaşamağı xoşbəxtlik kimi qiymətləndirdi. Bu ifadədə dərin məna vardır: dünyada yaşayan heç də bütün xalqların, bütün etnosların malik olmadığı bu xoşbəxtlik xalqımıza asanlıqla nəsib olmamışdır. Bu gün Azərbaycan xalqı müstəqil dövlətə malikdirsə,bu müstəqilliyi qoruyub-saxlamağaqadirdirsə bu, bizdən əvvəlki nəsillərin, dövlət adamlarının, mütəfəkkirlərin, dahi şəxsiyyətlərin və hər kəsdən əvvəl, Ulu Öndərimizin yorulmaz əməyinin, müstəsna xidmətlərinin nəticəsidir. Bugünkü nəsil bunu heç vaxt yaddan çıxartmamalı, bu xoşbəxtliyin ona kimlərin səyləri və hansı qurbanların bahasına başa gəldiyini yadda saxlamalı və müstəqilliyimizin əbədi olması, onun hər cür daxili və xarici təhlükələrdən müdafiə edilməsi uğrunda mübarizəyə hazır olmalıdır. Fikrimcə, bu Prezidentin gəncliyə verdiyi başlıca mesajdır.

Azərbaycan Prezidenti tərəfindən gənclik qarşısında qoyulan digər vəzifələr isə məhz bu əsas vəzifənin yerinə yetirilməsi yollarını və vasitələrini müəyyən edir: insan və vətəndaş üçün ən böyük xoşbəxtlik olan milli müstəqilliyin qorunub saxlanılması, onun əbədi və dönməz olması üçün gələcəkdə müstəqil Azərbaycan dövlətini idarə edəcək bugünkü gənclik ən yüksək tələblərə cavab verən təhsil səviyyəsinə və peşəkarlığa, milli-mənəvi dəyərlərə sadiqlik və vətənpərvərlik ruhuna malik olmalı, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməli, problem və nöqsanlara qarşı barışmazlıq nümayiş etdirməli, öz yaradıcılıq potensialını xalqımızın inkişafı naminə sərf etməyə hazır olmalıdır.

Prezidentin çıxışında vurğulanan məsələlərdən birini - dövlət qurumlarında və özəl təşkilatlarda gənclərin potensialından daha geniş istifadə olunması, onların elmi yaradıcılıq fəaliyyətinin hərtərəfli dəstəklənməsi məsələsini də xüsusi qeyd etmək istərdim. Bu gün biz dövlət qurumlarında bu prosesin şahidiyik və öz çıxışında Prezidentin bunu bir daha vurğulaması, bu siyasətin gələcəkdə də davam etdiriləcəyinin göstəricisi, eyni zamanda, özəl sektora onun tövsiyəsi kimi qiymətləndirilə bilər.

Qeyd edilənləri ümumiləşdirərək və sualınıza cavab olaraq deyə bilərəm ki, cənab Prezident Azərbaycanın hər bir gəncini yüksək təhsilli, öz işinin peşəkarı olan, ictimai fəallığı ilə seçilən, elmi-yaradıcılıq potensialını reallaşdıran, ölkəsinin müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizəyə hazır, milli-mənəvi dəyərlərə sadiqvətənpərvər kimi görmək istəyir, bu keyfiyyətlərə malik olan bir vətəndaş kimi yetişməyi onun qarşısında əsas vəzifə olaraq qoyur.

Əminliyimi ifadə etmək istərdim ki, dövlət tərəfindən hərtərəfli diqqət və qayğı ilə əhatə olunmuş gənclərimiz cənab Prezidentin onların qarşısında qoyduğu bu vəzifələrin öhdəsindən gəlmək, onun rəhbərliyi altında Azərbaycanın daha parlaq gələcəyini təmin etmək iqtidarında və əzmindədirlər.

***- Hazırda ölkəmizdə könüllülük hərəkatı böyük vüsət alaraq əhatə dairəsini daha da genişləndirir. Azərbaycan gəncliyinin bu hərəkatda rolunu və fəallığını necə dəyərləndirirsiniz?***

- Bildiyiniz kimi, könüllülüyün müxtəlif növləri vardır. Bu, kütləvi

# Xocalıya ədalət!" beynəlxalq kampaniyası Xocalı soyqırımı barədə həqiqətlərin dünyada tanıdılmasında mühüm rol oynadı

*Birinci vitse-prezidentin köməkçisi, Prezident Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyevin yap.org.az-a müsahibəsi*

tədbirlər, ayrı-ayrı sosial, ekoloji və digər aksiyalar və hətta təbii fəlakətlər zamanı könüllü surətdə göstərilən fəaliyyət şəklində baş verir və insanlar müəyyən bir amal ətrafında birləşərək cəmiyyətə yardım etməyə hazırlıqlarını nümayiş etdirirlər.

Könüllülük fenomeni, təbii ki, ölkəmizdə də bu və ya digər formada və miqyasda illər uzunu mövcud olmuşdur, lakin məhz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi diqqəti sayəsində son illər ərzində könüllülük ideyası əhali, xüsusilə də gənclər arasında dərin kök atmış, könüllülük hərəkatı geniş vüsət almışdır. Ötən dövr ərzində "Könüllülük fəaliyyəti haqqında qanun" qəbul olunmuş, könüllülüyü ehtiva edən maddələr bir sıra dövlət proqramlarına daxil edilmiş, ayrı-ayrı təşkilatlar və qurumlar çərçivəsində də könüllülər fəaliyyət göstərməyə başlamışlar.

Sirr deyildir ki, Azərbaycan gəncləri əhalinin ən fəal hissəsidir. Könüllülük ümumilikdə sırf gəncliklə bağlı bir fenomen olmasa da, ölkəmizdə könüllülük hərəkatında iştirak edənlərin böyük əksəriyyətinin məhz gənclər olması, fikrimcə, müsbət hal kimi qiymətləndirilə bilər. Azərbaycan könüllüləri ölkəmizdə təşkil edilən irimiqyaslı beynəlxalq tədbirlər zamanı, eləcə də müxtəlif dövlət qurumlarının fəaliyyətinə yardım olaraq böyük işlər görmüşlər. İlk Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, Avroviziya Mahnı Müsabiqəsi, Beynəlxalq Humanitar Forum və xeyli sayda digər beynəlxalq tədbirlərin ölkəmizdə keçirilməsi, bir tərəfdən beynəlxalq ictimaiyyətin dövlətimizə yüksək etimadının göstəricisi, digər tərəfdən isə böyük bir məsuliyyətdir. Bu məsuliyyətli işin öhdəsindən gəlməkdə, heç şübhəsiz, könüllülərin dəstəyi böyük rol oynamışdır.

Gənclər arasında könüllülüyün yayılması bir tərəfdən, fərdi olaraq gənclərin cəmiyyət üçün faydalı olan bir amal ətrafında birləşib fəaliyyət göstərməyə hazırlığını əks etdirir, digər tərəfdən onların məsuliyyətli vətəndaş kimi yetişməsinə xidmət edir. Bu baxımdan, dövlət könüllülük hərəkatının ölkəmizdə daha da inkişaf etməsində maraqlıdır və çox xoşdur ki, gənclərimiz də öz fəallıqları ilə bu marağı bölüşdüklərini göstərirlər.

Bununla yanaşı hesab edirəm ki, ölkəmizdə könüllülük hərəkatının sistemləşdirilməsi, vahid mütəşəkkil formaya salınması könüllülərin potensialından daha səmərəli istifadə edilməsi baxımından faydalıdır. Bu eyni zamanda, vahid könüllülük hərəkatının bütün respublikanı - paytaxt Bakıdan tutmuş ən ucqar kəndimizədək əhatə etməsinə imkan verəcəkdir. Gənclərimizin könüllülüyə marağının və bu sahədə fəallığının ildənilə artması mülahizəmizin doğru olduğunu söyləməyə əsas verir. Qeyd edim ki, vahid könüllülük hərəkatı bir çox ölkələrdə də təşəkkül tapmış və özünü doğrultmaqdadır.

***- Yusuf müəllim, bu il Xocalı soyqırımının 27-ci ildönümüdür, bu faciə ilə əlaqədar respublikamızda və xarici ölkələrdə çoxsaylı tədbirlər keçirilir. Eyni zamanda, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində önəmli işlər görülür. Bu tədbirlərin Xocalı soyqırımının dünyada tanıdılması baxımından əhəmiyyəti nədən ibarətdir?***

-İlk öncə, bu il 27-ci ildönümü olan Xocalı soyqırımında ailə üzvlərini, qohumlarını və yaxınlarını itirmiş hər bir kəsə və xalqımıza başsağlığı verir, həlak olanlara Allahdan rəhmət diləyirəm.

Bu faciə, yalnız Azərbaycan xalqının deyil, bütün bəşəriyyətin tarixində ən qanlı hadisələrdən biri kimi yaddaşlarda qalacaqdır. Ümid edirəm ki, insanlıq əleyhinə bu ağır hərbi cinayəti törətmiş şəxslər tezliklə hüquqi müstəvidə öz layiqli cəzalarını alacaqlar.

Təəssüf ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ilk illərində törədilmiş bu soyqırım aktı barədə həqiqətləri ölkəmizin həmin dövrdə düşdüyü informasiya blokadası şəraitində dünyaya çatdırmaq, demək olar ki, mümkün olmamışdı. Doğrudur, bir sıra beynəlxalq kütləvi informasiya vasitələri və beynəlxalq təşkilatların nümayəndələri bu faktı təsbit etsələr də, dünya ictimaiyyəti uzun müddət bu faciədən bixəbər və ona biganə qalmışdı. Hətta Ermənistan rəhbərliyinin Xocalıda məhz dinc əhaliyə divan tutmasını etiraf etməsi və buna haqq qazandırması belə dünya ictimaiyyətinin lazımi reaksiyasına səbəb olmamışdı. Bəlkə də, bu biganəliyin nəticəsidir ki, Xocalı soyqırımından bir neçə il sonra bəşəriyyət dünyanın müxtəlif bölgələrində insanlıq əleyhinə törədilmiş yeni ağır cinayətlərə şahidlik etməli oldu. Eyni zamanda, unutmamalıyıq ki, bu soyqırımadək, erməni silahlı qüvvələri artıq Bağanis Ayrım, İmarət Qərvənd, Xocavənd, Ağdaban, Qaradağlı və digər yaşayış məntəqələrində oxşar cinayətləri törətmiş, silahsız mülki əhalini amansızca qətlə yetirmişdilər.

Yalnız Ulu Öndər Heydər Əliyevin ölkə rəhbərliyinə qayıtmasından sonra, onun təşəbbüsü ilə Milli Məclis Xocalı soyqırımına siyasi-hüquqi qiymət verdi. Bu dövrdən etibarən ölkə miqyasında və ölkəmizdən kənarda Xocalı soyqırımı ilə bağlı tədbirlərin keçirilməsinə başlanıldı. 2008-ci ildə isə Heydər Əliyev Fondunun vitse-prezidenti, Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun Baş Koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" beynəlxalq maarifləndirmə kampaniyasına start verildikdən sonra keçirilən ardıcıl tədbirlər, müxtəlif xarici ölkələrin siyasi və ictimai dairələri ilə aparılan izahat işləri nəticəsində Xocalı soyqırımı barədə həqiqətlərin dünyada tanıdılması geniş vüsət aldı. Mən bu sahədə səfirliklərimizin, diasporumuzun və xüsusilə də gənclərimizin, o cümlədən xaricdə təhsil alan tələbələrimizin əhəmiyyətli rol oynadığını vurğulamaq istərdim. Sözügedən kampaniyanın uğurları barədə faktlarla danışmaq olar. Qısa müddət ərzində dünyanın müxtəlif qitələrindən 17 ölkə, eləcə də ABŞ-ın 22 ştatı, habelə 2 beynəlxalq təşkilat Xocalı soyqırımını tanıyan sənədlər qəbul etmişlər və bu proses davam etməkdədir. Qeyd etmək istəyirəm ki, "Xocalıya ədalət" beynəlxalq maarifləndirmə kampaniyası soyqırımın ildönümləri ərəfəsində xüsusilə intensivləşsə də, əslində bu sıradan olan ayrı-ayrı tədbirlər bütün il boyu təşkil edilir.

Xocalı soyqırımı barədə həqiqətlərin dünyaya yayılması həm də Ermənistan-Azərbaycan münaqişəsi barədə ədalətli mövqeyimizin dəstəklənməsi baxımından əhəmiyyətlidir.

Eyni zamanda, hesab edirəm ki, Xocalı soyqırımı barədə məlumatlandırma və maarifləndirmə işində xalqımızın hər bir nümayəndəsi fəal iştirak etməlidir. Çünki bu,hamımızın ağrısıdır və hər bir azərbaycanlı istər Xocalı faciəsində, istərsə də ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və xoşbəxt gələcəyi uğrunda şəhid olanların ruhu qarşısında məsuliyyət daşıyır.

## Sosial müavinətlərin artımı 577 min nəferi əhatə edəcək



Azərbaycan Respublikası Prezidentinin "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncamı ilə 16 növ sosial müavinət və təqaüd artırılıb və bu artım 577 min vətəndaşı əhatə edəcək. AZƏRTAC xəbər verir ki, bunu fevralın 25-də əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev sosial müavinətlərin artırılması ilə əlaqədar keçirdiyi mətbuat konfransında deyib.

Nazir bildirib ki, bu islahatlara hər il 400 milyon manat vəsait sərf ediləcək. Bu il isə bunun üçün 302 milyon vəsait sərf olunacaq. Sahil Babayev, həmçinin deyib: "Birinci qrup əlilliyi olanların təqaüdü 82 manatdan 150, ikinci qrup əlillərin təqaüdü 61 manatdan 130 manata çatdırılıb. Bütün növ müavinət və təqaüdlərə, eləcə də müharibə veteranlarına verilən təqaüdlərə və birdəfəlik müavinətlərə yüksək artım edilib. Dəfn üçün ayrılan müavinətin məbləği 300 manata çatdırılıb".

## Bakıda Pakistan-Azərbaycan-Türkiyə sərgisi keçiriləcək

Aprelin 11-13-də Bakıda Pakistan-Azərbaycan-Türkiyə sərgisi keçiriləcək. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondundan (AZPROMO) AZƏRTAC-a bildirilib ki, Azərbaycan şirkətləri sərgidə iştiraka dəvət olunurlar. Tədbirdə geniş çeşidli ixracat məhsulları nümayiş ediləcək və potensial alıcıların tələbatını ödəmək məqsədilə onlarla qarşılıqlı ünsiyyət qurulacaq. Sərgi çərçivəsində B2B formatında görüşlər keçiriləcək.

## Ermənilər Türkiyə ordusunun Qarsda keçirdiyi hərbi təlimlərdən qorxuya düşüblər



Ermənilər Türkiyə ordusunun Qarsda keçirdiyi hərbi təlimlərdən qorxuya düşüblər. Erməni hərbi analitik David Arutyunov bu təlimləri Yerevana qarşı təzyiq vasitəsi adlandırıb. AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, Türkiyə Silahlı Qüvvələrinin Qars vilayətində təşkil etdiyi və Azərbaycan, Bosniya və Herseqovina, Qətər, Böyük Britaniya, Almaniya, İtaliyadan 251 hərbçinin iştirak etdiyi "Qış-2019" irimiqyaslı hərbi təlimlərinin uğurla başa çatması ermənilərin təşvişinə səbəb olub. Bu qorxunu açıqca büruzə verən Arutyunov bildirib ki, həmin tədbirin siyasi məqsədi və geosiyasi hədəfləri var. Onun sözlərinə görə, guya Ankara Suriyaya humanitar yardım göndərən Yerevana təzyiq göstərmək istəyir. Analitik ənənəvi erməni hiyləgərliyi ilə əlavə edib ki, Türkiyə Suriyada mövqeyini möhkəmlətmək üçün, habelə Cənubi Qafqazda təsirini artırmaq məqsədilə Rusiyaya da təzyiq göstərir. Ən gülünc olanı isə, onun müzəffər Azərbaycan ordusunun uğurlu 2016-cı il Aprel əməliyyatını da bu fonda təqdim etməsidir. Arutyunyan Türkiyənin bu siyasətinin Dağlıq Qarabağ münaqişəsinə və Ermənistana da təsiri olacağını bildirib.

# Xarici İşlər Nazirliyi və Baş Prokurorluq Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar bəyanat yayıblar

***Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Baş Prokurorluğu Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar bəyanat yayıblar. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.***





Bəyanatda deyilir: "Erməni millətçiləri hələ Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) mövcudluğu dövründə - 1987-1988-ci illərdən etibarən Azərbaycanın Dağlıq Qarabağ bölgəsində separatizmin təşviqi və terrorizmin açıq dəstəklənməsi siyasətini yeritməyə başladılar. SSRİ-nin süqutundan dərhal sonra isə yenicə yaranmış Ermənistan Respublikasının ilk addımları dövlət səviyyəsində zor tətbiqi və Azərbaycan Respublikasına qarşı təcavüzkar müharibə etməkdən ibarət oldu. Bütün bunların nəticəsində Azərbaycan Respublikası ərazilərinin təqribən beşdəbiri işğal edildi, zəbt olunmuş torpaqlarda və Ermənistanın öz ərazisində bir milyondan artıq köklü azərbaycanlı etnik təmizləməyə məruz qaldı. Sözügedən təcavüz zamanı mülki azərbaycanlı əhaliyə qarşı çoxsaylı müharibə, insanlıq əleyhinə cinayətlər, o cümlədən soyqırımı aktları törədildi və bu cinayətlərə görə məsuliyyəti məhz təcavüzkar tərəf olan Ermənistan Respublikası daşıyır.

Müharibənin gedişinin ən faciəvi səhifəsi Xocalı şəhərinin işğalı ilə əlaqədar oldu. Münaqişədən əvvəl Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşən bu şəhərdə 7000 insan yaşayırdı. 1991-ci ilin oktyabr ayından şəhər tamamilə Ermənistan silahlı qüvvələri tərəfindən mühasirəyə alındı. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə kütləvi artilleriya zərbələrinin ardınca Ermənistan silahlı qüvvələri keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının köməyi ilə Xocalını işğal etdilər. İşğalçılar Xocalını darmadağın edərək xüsusi amansızlıqla onun dinc əhalisinin soyqırımını törətdilər.

Xocalı soyqırımı zamanı şəhərin 5379 nəfər əhalisi deportasiya olunmuş, 1275 insan əsir və girov götürülərək işgəncələrə məruz qalmış (onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil), 487 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri almış, 8 ailə tam məhv edilmiş, 130 uşaq valideynlərdən birini, 25 uşaq isə valideynlərdən hər ikisini itirmiş, 613 nəfər, o cümlədən 63 uşaq və 106 qadın işgəncə verilməklə vəhşicəsinə öldürülmüşdür. Ermənistan silahlı birləşmələri tərəfindən Xocalı şəhərinin işğal edilməsi ilə əlaqədar Azərbaycan dövlətinə və vətəndaşlarına 170 milyon ABŞ dollarından artıq ziyan vurulmuşdur.

Ermənistan tərəfindən Azərbaycan Respublikasına qarşı başlanan müharibənin səbəbləri və nəticələrinin ümumi qiymətləndirilməsi və Xocalıdakı faciəvi hadisələrin bütün mövcud faktları qəti şəkildə sübut edir ki, Azərbaycanın bu şəhərində törədilmiş cinayətlər sıradan və təsadüfi hərəkət deyil, Ermənistanın sistemli zorakılıq siyasətinin tərkib hissəsi olub. Xocalıdakı mülki insanların məqsədyönlü qırğını sadəcə azərbaycanlı olduqları üçün onların kütləvi məhvinə yönəlmişdi.

Azərbaycan Respublikasına qarşı davam edən təcavüz fonunda Ermənistan tərəfindən törədilmiş müharibə, insanlıq əleyhinə cinayətlər və Xocalı soyqırımı insan hüquqları və beynəlxalq humanitar hüququn, xüsusilə 1949-cu il Cenevrə Konvensiyaları, Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt, İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan davranış və cəza növlərinə qarşı Konvensiya, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında beynəlxalq Konvensiya, Uşaq hüquqları haqqında Konvensiya və İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın ciddi şəkildə pozulmasıdır.

Azərbaycan Respublikası Hərbi Prokurorluğu tərəfindən aparılan istintaqla bir sıra hərbi qulluqçuların və digər şəxslərin Xocalı soyqırımında iştirakı tam sübuta yetirilib və onların Azərbaycan Respublikası Cinayət Məcəlləsinin soyqırımı, işgəncə, əhalini deportasiya etmə, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozmağa və digər cinayətlərə görə məsuliyyət nəzərdə tutan maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilmələri barədə müvafiq qərarlar çıxarılıb.

Xocalı soyqırımı epizodu üzrə aparılan istintaq zamanı 7000-ə yaxın istintaq hərəkəti icra edilib, o cümlədən 1771 şahid və 2699 zərərçəkmiş şəxs qismində olmaqla 4470 nəfər dindirilib, 800-dən artıq müxtəlif növ ekspertizalar keçirilib, digər istintaq hərəkətləri icra edilib.

Beynəlxalq ictimaiyyət Ermənistanın Azərbaycana qarşı hərbi güc tətbiq etməsini və təcavüz zamanı beynəlxalq humanitar hüququ ciddi şəkildə pozmasını BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874, 884 saylı qətnamələri başda olmaqla çoxsaylı beynəlxalq təşkilatların qərar və qətnamələrində qəti şəkildə pisləyib.

Avropa İnsan Hüquqları Məhkəməsi 2010-cu il 22 aprel tarixli qərarında Xocalıda törədilmiş cinayətə münasibətdə hücumda iştirak edənlərin davranışını müharibə cinayətləri və ya insanlıq əleyhinə cinayətlərə bərabər tutulan hərəkətlər kimi qiymətləndirərək mühüm nəticəyə gəlib.

Hazırda 16 dövlətin milli qanunvericilik orqanı, həmçinin İslam Əməkdaşlıq Təşkilatı Xocalıda dinc əhalinin qırğınının ən kəskin şəkildə pislənilməsi və Xocalı faciəsinin soyqırımı və insanlıq əleyhinə cinayət aktı kimi tanınmasına dair çoxsaylı qətnamə və qərarlar qəbul ediblər.

Lakin Ermənistan hələ ki, dünya ictimaiyyətinin mövqeyinə, xüsusilə Azərbaycanın zəbt olunmuş torpaqlarından işğalçı qüvvələrin dərhal, qeyd-şərtsiz və tam geri çəkilməsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə məhəl qoymur və beləliklə, beynəlxalq hüququ kobudcasına pozmaqda davam edir. Ermənistan qəsb olunmuş ərazilərdə hərbi mövcudluğunu saxlayaraq, həmin ərazilərin demoqrafik, mədəni və fiziki xarakterini dəyişdirərək, yüz minlərlə azərbaycanlının orada yerləşən doğma yurd-yuvalarına qayıtmasının qarşısını alaraq, işğala əsaslanan mövcud status-kvonun möhkəmlənməsinə yönəlmiş səylər göstərməyə davam edir.

Ermənistan Respublikasının beynəlxalq hüquqa zidd fəaliyyətləri ilə bağlı məsuliyyətləri ilə yanaşı, beynəlxalq cinayət hüququnun adət və müqavilə normalarına əsasən, Xocalı şəhərində törədilənlər də daxil olmaqla silahlı münaqişə kontekstində törədilmiş müəyyən fəaliyyətlər beynəlxalq cinayət əməlləri hesab olunur. Bu əməllərin törədilməsində iştirak etmiş şəxslər, eləcə də onlarla əlbir olan və onlara kömək edənlər də fərdi qaydada məsuliyyət daşıyırlar.

Məlumdur ki, ötən il Ermənistanın əhalisinin kütləvi etirazları nəticəsində hakimiyyətdən uzaqlaşdırılmış həmin ölkənin əvvəlki rəhbərliyinin bəzi nümayəndələri, digər çoxlu yüksək rütbəli siyasi və hərbi rəsmiləri və Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən yaradılmış separatçı rejimin rəhbərləri ilə birlikdə, Azərbaycan torpaqlarının zəbt olunmasında və Xocalı da daxil olmaqla azərbaycanlı mülki şəxslərə və hərbçilərə qarşı zorakılıqda şəxsən iştirak ediblər.

Öz təqsirini utanmadan etiraf etmiş Ermənistanın o dövrdəki müdafiə naziri və sabiq prezidenti Serj Sarkisyan Britaniya jurnalisti Tomas de Vaala müsahibəsində deyib: "Xocalıdan qabaq azərbaycanlılar düşünürdülər ki, ermənilər mülki əhaliyə əl qaldıra bilməyən xalqdırlar. Biz bu stereotipi sındırdıq" (Tomas de Vaal, Qarabağ: Ermənistan və Azərbaycan sülh və savaş yollarında (Nyu-York və London, Nyu-York Universiteti Nəşriyyatı, 2003), səhifə 172)).

Danılmaz faktdır ki, bu gün ən qatı beynəlxalq cinayətlər, o cümlədən hərbi cinayətlər, insanlıq əleyhinə cinayətlər, soyqırımı və etnik təmizləmədə adı hallandırılan heç bir şəxsə onun indiki və ya əvvəlki hər hansı statusu immunitet verə bilməz.

Bununla əlaqədar, hazırda Ermənistanda öz xalqına qarşı müxtəlif cinayətlərin törədilməsi ittihamları ilə barələrində istintaq və məhkəmə prosesləri aparılan şəxslərin Azərbaycan xalqına qarşı ən ağır cinayətlərin törədilməsinə görə də məsuliyyətə cəlb edilməsi həm beynəlxalq ədalətin bərqərar olunması, həm də Ermənistan-Azərbaycan münaqişəsinin dinc yolla danışıqlar vasitəsilə nizama salınmasına mühüm töhfə verə bilər. Məhz belə olacağı təqdirdə, ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin və ümumiyyətlə, dünya ictimaiyyətinin dəstəklədiyi Ermənistan və Azərbaycan əhalisinin sülhə hazırlanması və qarşılıqlı surətdə etimadın yaradılması istiqamətində gerçək irəliləyişin baş verməsinin mümkünlüyü artacaq.

Azərbaycan Respublikası əmindir ki, milli səviyyədə, eləcə də mövcud beynəlxalq hüquq çərçivəsində görülən davamlı tədbirlər cəzasızlığa son qoyulmasına və Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı törədilmiş ağır cinayətlərə görə məsuliyyət daşıyan şəxslərin ədalət məhkəməsinə çıxarılmasına xidmət edəcək".

# "Prezident İlham Əliyevin 2019-cu ildə sosial-iqtisadi sahədə atdığı addımlar keyfiyyətcə yeni mərhələnin göstəricisidir"

***Prezident İlham Əliyevin 2019-cu ildə sosial-iqtisadi sahədə atdığı addımlar keyfiyyətcə yeni mərhələnin göstəricisi, həyata keçirilən sosial paketin tərkib hissəsidir.***



Bunu Trend-ə açıqlamasında "Səs" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev deyib. O bildirib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan uğurlu sosial siyasət 2003-cü ildən Prezident İlham Əliyevin timsalında növbəti mərhələyə qədəm qoyub, burada da vətəndaş amili, onun sosial rifah halının yaxşılaşdırılması öndə duran məsələlərdəndir: "Artıq 16 ildir ki, uğurla davam etdirilən bu mərhələ ölkənin sosial siyasətində inqilabi dəyişikliklərə səbəb olub. Ölkəmizdə sosial sahə dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması, işsizliyin aradan qaldırılması, aztəminatlı ailələrə, şəhid ailələrinə, veteranlara dövlət qayğısının, pensiya və təqaüdlərin, maaşların, o cümlədən minimum əməkhaqlarının artırılması istiqamətində atılan addımlar Azərbaycanın şaxələndirilmiş iqtisadiyyatının nəticələridir".

Ekspert qeyd edib ki, Prezident İlham Əliyevin sosial sahədə imzaladığı son sərəncamlar ölkə başçısının hakimiyyətə ilk gəldiyi gündən verdiyi vədlərə daim sadiq qaldığını bir daha göstərir:

"Dövlət başçısı hər zaman bildirir ki, əsas məqsəd güclü iqtisadiyyatı insan kapitalına çevirməkdir. Bu addımlar Prezident İlham Əliyevin verdiyi vədlərin davamı və keyfiyyətcə yeni mərhələsidir. Bundan əlavə, dövlət başçısının vətəndaşların yanında olması, problemlərin birbaşa olaraq onların dilindən eşidilməsi göstərir ki, Prezident İlham Əliyev birbaşa vətəndaşlarla təmasda olmağa maraqlıdır. Bu iki tandem, lider və vətəndaş hörməti, qarşılıqlı etimad ümumilikdə ölkəmizin sosial iqtisadi inkişafına xidmət edir. Bir sözlə ifadə etsək, bu gün Azərbaycan dövlətinin sosial sahədə atdığı addımlar öz miqyasına, təsir dairəsinə, əhəmiyyətinə görə heç bir ölkədə müşahidə olunmur".

Prezident İlham Əliyevin 2019-cu ildə sosial-iqtisadi sahədə atdığı addımlar keyfiyyətcə yeni mərhələnin göstəricisi, həyata keçirilən sosial paketin tərkib hissəsidir.

Bunu Trend-ə açıqlamasında "Səs" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev deyib. O bildirib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan uğurlu sosial siyasət 2003-cü ildən Prezident İlham Əliyevin timsalında növbəti mərhələyə qədəm qoyub, burada da vətəndaş amili, onun sosial rifah halının yaxşılaşdırılması öndə duran məsələlərdəndir: "Artıq 16 ildir ki, uğurla davam etdirilən bu mərhələ ölkənin sosial siyasətində inqilabi dəyişikliklərə səbəb olub. Ölkəmizdə sosial sahə dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması, işsizliyin aradan qaldırılması, aztəminatlı ailələrə, şəhid ailələrinə, veteranlara dövlət qayğısının, pensiya və təqaüdlərin, maaşların, o cümlədən minimum əməkhaqlarının artırılması istiqamətində atılan addımlar Azərbaycanın şaxələndirilmiş iqtisadiyyatının nəticələridir".

Ekspert qeyd edib ki, Prezident İlham Əliyevin sosial sahədə imzaladığı son sərəncamlar ölkə başçısının hakimiyyətə ilk gəldiyi gündən verdiyi vədlərə daim sadiq qaldığını bir daha göstərir: "Dövlət başçısı hər zaman bildirir ki, əsas məqsəd güclü iqtisadiyyatı insan kapitalına çevirməkdir. Bu addımlar Prezident İlham Əliyevin verdiyi vədlərin davamı və keyfiyyətcə yeni mərhələsidir. Bundan əlavə, dövlət başçısının vətəndaşların yanında olması, problemlərin birbaşa olaraq onların dilindən eşidilməsi göstərir ki, Prezident İlham Əliyev birbaşa vətəndaşlarla təmasda olmağa maraqlıdır. Bu iki tandem, lider və vətəndaş hörməti, qarşılıqlı etimad ümumilikdə ölkəmizin sosial iqtisadi inkişafına xidmət edir. Bir sözlə ifadə etsək, bu gün Azərbaycan dövlətinin sosial sahədə atdığı addımlar öz miqyasına, təsir dairəsinə, əhəmiyyətinə görə heç bir ölkədə müşahidə olunmur".

# "2019-cu il sosial sahədə inqilabi islahatlar ili kimi tarixə düşə bilər"

***"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iqtisadi və sosial məsələlərlə bağlı müşavirədə qeyd etmişdi ki, Azərbaycanda aparılan iqtisadi islahatlar, şəffaflaşdırma siyasəti büdcə gəlirlərinin artmasına, maliyyə imkanlarının əhəmiyyətli dərəcədə yüksəlməsinə şərait yaratdı.***

Prezident İlham Əliyev isə daima sosial problemlərin həllini diqqət mərkəzində saxladığına görə yaranmış imkanları ilk növbədə məhz sosial sferaya yönəldilməsini təmin etdi. Beləliklə minimum əməkhaqqının, minimum pensiyanın, tələbələrin təqaüdlərinin artırılması, digər ödənişlərin verilməsi kimi mühüm addımlar qısa müddətdə atıldı və Prezident bütün bunları həyata keçiriləcək böyük sosial paketin yalnız bir hissəsi kimi qiymətləndirdi". Bunu SİA-ya açıqlamasında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.

Deputatın sözlərinə görə, doğurdan da qısa müddətdə belə mühüm qərarların qəbul edilməsi 2019-cu ili sosial sahədə inqilabi islahatlar ili kimi qiymətləndirməyimizə əsas verir: "Hazırda 12 min 200-dən çox şəhid ailəsinə



dövlət tərəfindən 11 min manat ödəniş edilir, şəhid ailələrinin müavinətləri 242 manatdan 300 manata çatdırıldı, eyni zamanda bu il şəhid ailələrinə 800 mənzilin verilməsi nəzərdə tutulur. Bu günə qədər isə 6500-dən çox şəhid ailəsi dövlət tərəfindən mənzillər verilmişdir. Bu il minimum əməkhaqqı 38 faiz artaraq 130 manatdan 180 manata qaldırıldı, minimum pensiyaların məbləği 38 faiz qaldırılaraq 116 manatdan 160 manata çatdırıldı. Beləliklə də bu gün minimum pensiyanın səviyyəsinə görə Azərbaycan MDB məkanında ikinci yerdədir. Ancaq bu da hələ son hədd deyil. Prezident İlham Əliyev bu istiqamətdə işlərin bundan sonra da davam etdiriləcəyini bildirdi. Ən mühüm məsələlərdən bir də problemli kreditlərlə bağlı olan məsələ idi ki, bu olduqca mürəkkəb və çoxmərhələli həll yolu tələb edən bir problem idi. Prezident İlham Əliyev artıq bununla bağlı da mühüm qərarların qəbul ediləcəyini bildirərək qeyd etdi ki, Azərbaycan problemli kreditlər məsələsini həll etməklə ciddi nümunə göstərəcək. Biz istəyirdik ki, problemli kreditlərlə bağlı məsələ ətrafında ictimai müzakirələr aparılsın və buna nail olduq. Problemli kreditlər məsələsi üzərində ötən ildən başlayaraq fəal iş aparılır. Yaxın gələcəkdə problemli kreditlərlə bağlı məsələ də öz həllini tapacaq.

Göründüyü kimi, artıq xeyli müddətdir ki, bu istiqamətdə işlər aparılır və məqsəd odur ki, MDB -nin bəzi ölkələrində anoloji problemin həlli ilə bağlı qəbul olunmuş qərarların icrası ilə bağlı problemlər Azərbaycanda təkrar olunmasın. Tez bir zamanda icra edilsin. Biz bilirik ki, bəzi ölkələrdə bənzər qərarlar qəbul edilsə də problem həll edilmədi çünki onun icra mexanizmi və maliyyə mənbələri düzgün məyyən edilməmişdi. Azərbaycanda isə buna yol verilməyəcək və bu problem də öz həllini tapacaq. Bütün bunalr Azərbaycan Prezidentinin planlı sosial siyasətinin tərkib hissəsidir və vətəndaşların sosial rifahının təmin olunmasına yönəlib".

***Ceyhun Rasimoğlu***

# Ekspert: "Növbəti aylarda iqtisadi və sosial sferada yeni islahatların aparılacağını müşahidə edəcəyik"

***Azərbaycan 2019-cu ilə struktur islahatları ilə yanaşı, sosial sferada aparılan islahatlar və sosial təminatın gücləndirilməsi ilə daxil olub. Son 2 ayda bu sahələrdə aparılan islahatlar iqtisadi inkişafın daha dayanıqlı olmasını təmin edir, eyni zamanda, vətəndaşların iqtisadi islahatlardan daha çox faydalanmasına imkan yaradır. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında iqtisadi və sosial məsələlərlə bağlı keçirilən müşavirə ilin ötən dövründə həyata keçirilən fəaliyyətləri və islahatları qiymətləndirməklə yanaşı, növbəti aylar üçün prioritetləri müəyyənləşdirdi.***

Bu sözləri AZƏRTAC-a iqtisadçı ekspert Vüqar Bayramov deyib. Ekspert qeyd edib ki, geridə qoyduğumuz 2 ay sosial təminatın gücləndirilməsi baxımından yadda qaldı. Bir tərəfdən minimum əməkhaqqı, pensiyalar artırıldı, sosial sferada vətəndaşları maraqlandıran kifayət qədər ciddi və əhəmiyyətli işlər görüldü. "Eyni zamanda, istismara alınmayan binaların istismara alınması ilə bağlı dövlət başçısı tərəfindən imzalanan müvafiq fərmana uyğun olaraq bina evlərində yaşayan mənzil sahiblərinin çıxarışla təmin olunması ilə bağlı aparılan tədbirlər xüsusi qeyd olunmalıdır. Müşavirədə müzakirə edilən məsələlərdən biri də problemli kreditlərin həll edilməsi ilə bağlı ölkə başçısı tərəfindən göstərişin verilməsi və bununla bağlı fərqli təkliflərin müzakirəsi, bu məsələnin araşdırılması oldu. Düşünürəm ki, bu istiqamətdə müəyyən addımın atılması vətəndaşlarımızı daha çox narahat edən məsələlərdən birinin yaxın zamanlarda həll edilməsi anlamına gəlir. Praktiki olaraq bu, ondan xəbər verir ki, hazırda Azərbaycan vətəndaşını maraqlandıran sosial məsələlər dövlət başçısının diqqət mərkəzindədir. Xüsusən son aylar sosial təminatın gücləndirilməsi ilə bağlı atılan addımlar, ölkə başçısı tərəfindən fərqli problemlərin araş-



dırılması və həll edilməsi ilə bağlı verilən göstərişlər vətəndaşların sosial təminatının gücləndirilməsi, bütövlükdə iqtisadiyyatın inkişafı və inklüziv inkişaf baxımından çox vacibdir".

V.Bayramov deyib: "Müşavirə, eyni zamanda, həm iqtisadi və sosial islahatların qiymətləndirilməsi, həm də növbəti dövrdə həyata keçiriləcək islahatlarla bağlı prioritet və istiqamətləri müəyyənləşdirdi. Həmin kontekstdən də bugünkü müşavirə Azərbaycanda növbəti aylarda da davamlı islahatların həyata keçiriləcəyi və bu istiqamətdə fəaliyyətin davam etdiriləcəyi ilə bağlı mesajdır. Biz növbəti aylarda iqtisadi və sosial sferada yeni islahatların aparılacağını müşahidə edəcəyik".

## Avropa Parlamentinin üzvləri Xocalı soyqırımı qurbanlarının xatirəsini hər il anım günü kimi qeyd etməyə çağırıblar



Xocalı soyqırımının ildönümü ərəfəsində Avropa Parlamentinin 60-dan çox üzvü bəyanat imzalayıb. Bəyanatda bildirilir ki, gələcəkdə bəşəriyyətə qarşı belə cinayətlərin qarşısını almaq məqsədilə Xocalı soyqırımının günahsız mülki qurbanlarının xatirəsi ehtiramla yad edilməlidir. AZƏRTAC xəbər verir ki, bəyanatda Xocalıda baş vermiş qanlı hadisələrin qurbanları olmuş qadın, uşaq və yaşlı insanlar haqqında məlumat da yer alıb.

"Hesab edirik ki, gələcəkdə bəşəriyyətə qarşı belə cinayətlərin bir daha baş verməməsi üçün Xocalıda törədilmiş dəhşətli hadisələr zamanı həyatını itirmiş insanların xatirəsini yad etmək böyük əhəmiyyət kəsb edir. 27 il öncə Azərbaycanın Dağlıq Qarabağ regionunda baş vermiş Xocalı qətliamının günahsız qurbanlarının xatirəsini böyük hüznlə yad edir və onların ailələrinə başsağlığı veririk. Xocalı faciəsi zamanı həyatını itirmiş insanların ailələrinin kədərini bölüşürük. Biz, Avropa Parlamentinin üzvləri bütün həmkarlarımızı Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etməyə və hər il bu günü qurbanların xatirəsinə hörmət əlaməti olaraq anım günü kimi qeyd etməyə çağırırıq", - deyə bəyanatı imzalayan Avropa Parlamentinin üzvləri öz həmkarlarına müraciət ediblər.

## Berlində "Xocalıya ədalət!" aksiyası




Berlində Azərbaycanlıların Koordinasiya Şurasının təşkilatçılığı ilə etiraz aksiyası keçirilib. Xəbər verilir ki, Brandenburq qapıları qarşısında keçirilən aksiya iştirakçıları erməni silahlı dəstələri tərəfindən bəşəriyyətə qarşı törədilmiş cinayət - Xocalı soyqırımı və 1949-cu il Cenevrə Konvensiyasının Ermənistan tərəfindən pozulması haqqında məlumatı alman ictimaiyyətinin diqqətinə çatdırmaq məqsədilə şəhər sakinlərinə sənədli dəlillər - qəddarcasına güllələnmiş uşaqların, qadınların və qocaların fotoşəkillərini təqdim ediblər.

Aksiyada çıxış edənlər 27 il bundan əvvəl baş vermiş faciə, Ermənistanın Azərbaycana qarşı təcavüzü, ölkəmizin ərazisinin 20 faizinin işğal edilməsi, habelə doğma yurdlarından didərgin düşmüş bir milyon qaçqın və məcburi köçkün haqqında məlumat veriblər. İştirakçılar "Xocalıya ədalət!", "Günahsız körpələri öldürməyin!", "Erməni yalanlarına dur de!", "İşğalı dayandır!", "Dilqəmə və Şahbaza azadlıq!" və digər şüarlarla dünya ictimaiyyətinə çağırış ediblər. Aksiya fəalları Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və Ermənistanın təcavüzkar siyasətinin mahiyyəti haqqında informasiyanın əks olunduğu bukletləri şəhər sakinləri arasında paylayıblar.

# Emil Tağıyev: "Ermənistanın 305 hərbçisi və separatçı İnterpola axtarışa verilib"

Ermənistanın silahlı qüvvələri, həmçinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsində erməni separatçı rejimin qanunsuz silahlı birləşmələri tərəfindən törədilən cinayət faktları üzrə beynəlxalq hüquq normalarına uyğun hərtərəfli istintaq aparılaraq sülh və insanlıq əleyhinə, habelə müharibə və digər xüsusi cinayətlər törətmiş 305 şəxs İnterpola axtarışa verilib.

Bu barədə AZƏRTAC-a açıqlamasında Azərbaycan Hərbi Prokurorluğunun xüsusi istintaq şöbəsinin rəisi Emil Tağıyev məlumat verib. Həmin şəxslərin Azərbaycan Cinayət Məcəlləsinin 103 (soyqırımı), 107 (deportasiya), 113 (işgəncə), 115 (müharibə qanunlarını və adətlərini pozma) və 116-cı (silahlı münaqişə zamanı beynəlxalq humanitar normalarını pozma) maddələrində nəzərdə tutulan cinayətləri sübuta yetirilib və təqsirləndirilən şəxs qismində istintaqa cəlb edilmələrinə dair qərarlar qəbul edilib. E.Tağıyev bildirib ki, həmin 305 şəxs barəsində həbs qətimkan tədbiri seçilib və axtarışlarının təmin edilməsi üçün müvafiq sənədlər İnterpolun Azərbaycandakı Milli Bürosuna və Daxili İşlər Nazirliyinə təqdim edilib. Onların 39-u Xocalı soyqırımı, 12-si Qaradağlı, 18-si Bağanis-Ayrım, 9-u Meşəli, 47-si Kərkicahan soyqırımlarında təqsirli bilinir. Daha 35 nəfər əsir və girov götürülmüş şəxslərə qarşı işgəncə faktları üzrə, 133 nəfər isə qəsdən adamöldürmə və digər cinayətlərdə ittiham olunur.



ARAŞDIRMA

Xəbər verdiyimiz kimi 2018-ci ildə qeyri-neft sektoru üzrə ixrac 1 milyard 689 milyon ABŞ dolları təşkil edib ki, bu da 2017-ci illə müqayisədə 151 milyon dollar və ya 10 faiz artım deməkdir. Keçən il Rusiyaya 619,2 milyon dollar, Türkiyəyə 344,9 milyon dollar, İsveçrəyə 135,4 milyon dollar, Gürcüstana 124,5 milyon dollar və Qazaxıstana 44,6 milyon dollarlıq qeyri-neft sektoruna aid məhsul ixrac olunub. Ötən ilin dekabr ayında isə qeyri-neft sektoru üzrə ixrac 157 milyon dollar təşkil edib. Dekabrda qeyri-neft sektoruna aid ən çox məhsul ixrac edilən ölkələrin siyahısına Rusiya (63,8 milyon dollar) başçılıq edib. Daha sonra siyahıda Türkiyənin (23,6 milyon dollar), İsveçrənin (12,2 milyon dollar), Gürcüstanın (7,4 milyon dollar), İranın (5,4 milyon dollar) və digər ölkələrin adları var. 2019-cu ilin birinci ayının sosial-iqtisadi göstəricilərinə də nəzər yetirdikdə ölkəmizdə qeyri-neft sektorunda müsbət dinamikanı görmək mümkündür. Bütün bunlar deməyə əsas verir ki, artıq Azərbaycanda yerli istehsalın artımı idxalın isə azalma trendi müşahidə olunur. Ölkəmizdə yerli istehsalın artımı da nəticə etibarı ilə dünyanın bir çox ölkələrində müşahidə olunan qiymət artımının qarşısını alır. Buna əmin olmaq üçün əməkdaşımız tərəfindən müxtəlif market və dükanlarda müşahidələr aparılıb. Aparılan müşahidələr zamanı da heç bir qiymət artımı müşahidə edilmədi.



# “Bazarlarda süni şəkildə qiymət artımı qeydə alınmayıb”

## “Monitorinqlər zamanı süni şəkildə qiymət artımı qeydə alınmayıb”

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin əməkdaşı Şahin Nağıyev söyləyib ki, mütəmadi olaraq xidmət tərəfindən istehlak bazarında əsas məhsulların o cümlədən ərzaq məhsullarının qiymətinin monitorinqi aparılır, Həmin monitorinqlərin nəticələri təhlil edilir, təhlillərə uyğun olaraq müvafiq tədbirlər görülür:

“Son dövrlərdə aparılan monitorinqlər, təhlillər zamanı istehlak bazarında hər hansı bir süni şəkildə qiymət artımı qeydə alınmayıb. Eyni zamanda mövsümi xarakterli monitorinqlər aparılır. Xidmət tərəfindən daim müraciətlərə qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılır. Əgər istehlakçıların qiymətlə bağlı hər hansı müşahidəsi olarsa, bizə rəsmi şəkildə müraciət edə bilər”.

## “Bazarda qeyri-sabit vəziyyəti ehtiyatla təmin etmək gücündəyik”



Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Tədqiqatlar Mərkəzinin müşaviri Firdovsi Fikrətzadə bildirib ki, ötən il ölkəmizdə ümumi dənli bitkilərin istehsalının həcmi 2.9 milyon tondan 3.3 milyon tona yüksəlib: “O cümlədən buğda istehsalının həcmi 1,8 milyon tondan, 2 milyon tona yüksəlib. Əgər biz 2017-ci ildə 1.3 milyon ton idxal etmişdiksə, 2018-ci ildə Azərbaycanın buğda idxalı 1 milyona tona enib. Son iki il müddətində idxalda sürətli şəkildə azalma trendinə malikdir. Digər tərəfdən isə Azərbaycan hökuməti buğda üzrə strateji ehtiyatlar yaradıb. Məlum olduğu kimi bizim strateji buğda ehtiyatımız 500 min tondan yuxarıdır. Bazarda qeyri-sabit vəziyyət yarandığı halda, bu ehtiyatla təchiz etmək mümkündür”.

## “Dünyada müşahidə olunan qiymət artımı Azərbaycana təsir etmək gücündə deyil”

Dünya bazarında buğdanın qiymətindəki dəyişikliyin Azərbaycana təsirinə gəlincə, söyləyib ki, Azərbaycanda istehsal həcmi artığını nəzərə alsaq, bu artım ölkəmizə təsir etmək gücünə malik deyil: “Dünya bazarında son 5 ildə buğdanın qiyməti dinamik şəkildə dəyişib. Belə ki, bu qiymət 150-330 dollar arasında dəyişib. Bir müddət öncə, dünya bazarında buğdanın qiyməti normadan da aşağı düşmüşdü. Amma hazırda artım müşahidə olunur. Ötən ilin yanvar ayında 190 dollar idisə, bu il bu rəqəm 200 dollarla əvəz olunub. Azərbaycanın öz istehsal həcminin artması, strateji ehtiyatlarımızın həcminin kifayət qədər artıq olması, həmçinin idxal, istehsal olunan buğda məhsullarını əlavə dəyər vergisindən azad olunmasına görə bizdə bu taxıl məhsullarının qiymətindən artım müşahidə olunmayacaq və sabitlik təmin olunacaq”.



## “Əkin sahələrində kifayət qədər artım var”

O qeyd edib ki, Azərbaycanda buğda üzrə məhsuldarlıq göstəricisi real şəkildə ilbəil artır: “Buğda əkin sahələri ilə bağlı da artım müşahidə olunmaqdadır. Ümumilikdə 2019-cu il üçün buğda əkin sahələrində kifayət qədər artım var. Əgər Azərbaycanda 2018-ci ildə məhsul ili üçün 2017-ci ildə həyata keçirilən payızlıq buğda əkini üçün 594 min hektar ərazidən istifadə edilmişdirsə, bu il məhsul əldə etmək üçün 674 min hektar sahədə buğda əkilib. Bu baxımdan biz növbəti ildə buğda idxalı göstəricilərimizin daha da azalmasına müşahidə edəcəyik”.

## “Buğda idxalının azalma trendi 2019-cu ildə də davam edib “

Azərbaycanın əsasən Qazaxıstan, Rusiya və Ukraynadan idxal etdiyini deyən F.Fikrətzadə qeyd edib ki, ötən ilin yanvar ayında 121 min ton buğda idxal edilmişdisə, bu ilin yanvar ayında 109 min ton buğda idxal etmişik: “Bu o deməkdir ki, 2018-ci ildən buğda idxalının azalma trendi 2019-cu ildə də davam edib”.

## “Əsas ərzaq məhsullar üzrə Azərbaycanın özünü təminat göstəriciləri məqbul səviyyədədir”

O qeyd edib ki, Ölkəmizdə kənd təsərrüfatı ilə bağlı həyata keçirilən əsas siyasət məhsuldarlığın yüksəldilməsidir: “Əgər biz region ölkələrinin kənd təsərrüfatı məhsulları üzrə idxal-ixrac göstəricilərinə baxsaq, Azərbaycanda kənd təsərrüfatı məhsulları ilə özünün təminatı çox məqbul səviyyədədir. Azərbaycan meyvə-tərəvəz ixracatçısı ölkəsi olmasına baxmayaraq, ölkəmiz buğda istehsalında da yerli istehsalın həcmi kifayət qədərdir. Azərbaycan ət və süd məhsulları ilə təminatı təqribən 90 faiz səviyyəsindədir. Ölkəmizdə ən aşağı təminat buda ilə bağlıdır ki, bu da 60 faiz səviyyəsindədir. Bununla da biz özümüzü tam şəkildə təmin edə bilirik. Meyvə-tərəvəz məhsullarında da özümüzü təmin etmək gücündəyik. Yəni əsas ərzaq məhsullar üzrə Azərbaycanın özünü təminat göstəriciləri həm yerli istehsal həcmi məqbul səviyyədədir, həm də strateji ehtiyatlarla bağlı infrastrukturumuz məqbul səviyyədədir. Azərbaycanda 750 min tonluq buğda ehtiyatını təmin etməyin hüquqi əsasları yaradılıb. Bu baxımdan dünya bazarında baş verən qeyri-müəyyənlikdən Azərbaycanın heç bir narahatçılığı yoxdur”.

## “Azərbaycanda heç bir məhsulda bahalaşma yoxdur”

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov deyib ki, ölkəmizdə kənd təsərrüfatı istehsalı ilbəil artmaqdadır: “Bu il də bütün sahələrdə artım var. Azərbaycan özünü əsas ərzaq məhsulları ilə təmin etmək qabiliyyətindədir. Dünyada elə bir ölkə yoxdur ki, bütün məhsulları özü istehsal etsin və heç bir ölkədən heç nə idxal etməsin. Bu mümkünsüzdür. Azərbaycan da çörəkbişirmə sənayesində istifadə etmək üçün taxıl idxal edir. Hər kəsə məlumdur ki, Azərbaycanın idxal etdiyi ölkələrdə taxıl məhsullarının qiymətində artım olsa, bizdə bu artım müşahidə olunmur. Ölkəmiz başqa ölkələrə meyvə-tərəvəz idxal etdiyi halda, bahalaşma ilə bağlı söylənən fikirlərin heç bir əsası yoxdur. Azərbaycanda heç bir məhsulda bahalaşma yoxdur. Ailə başçısı kimi tez-tez bazara gedir, marketə girir bazarlıq edirəm və əminliklə qiymətlərdə artımın olmadığını deyə bilərəm”.



***Nailə Məhərrəmova***

# Qadının vəziyyətinin demokratikləşməsi və humanistləşməsi

***Qadınlara yardım ideologiyasına əsaslanıb, kəskin problemlər adlanan problembrin həllinə yönələn proqramlar strategiyası məqbul deyil. Belə proqramlar strategiyası yalnız qısa müddət üçün və yalnız qadının aşağı səviyyəli sosial statusa malik olduğu ölkələrdə nisbi olaraq, müvəffəqiyyət qazana bilər. "Qadın məsələsi"nin həqiqi həlli üçün mütərəqqi siyasət şəxsiyyətin muxtariyyətini və suverenliyini təmin edən bərabər imkanların prinsipial olaraq yeni eqalitar (əmlakın bərabər bölgüsünə əsaslanan) strategiya üzərində qurulmalıdır. O, patriarxal strategiyaya qarşı qoyulur.***

L.Mövsümova yazır: "Qadının vəziyyətinin demokratikləşdirilməsi və humanistləşdirilməsi, bütünlükdə, cəmiyyətin demokratikləşdirilməsinin ən mühüm vəzifəsi və şərtidir. Bunlar, hər şeydən əvvəl, keçmişin sosialist cəmiyyətində qadının vəziyyəti haqqında romantik-ideal təsəvvürlərdən imtina etməyi nəzərdə tuturlar. Bizdə qadınla kişinin bərabərliyindən o qədər çox danışılmışdır ki, bu söhbətlərə başı qarışanlar qadınların vəziyyətinin, peşəkar əmək sahəsində olduğu kimi, insan cinsinin davam etdirilməsində də, siyasətdə və ictimai həyatda iştirakı məsələsində də pisləşdiyini gözdən qaçırmışlar. Burada söz kişi və qadın şəxsiyyətinin, yaşından, yaşayış yerindən və milli mənsubiyyətindən asılı olmayaraq, peşəkar və ictimai fəaliyət sahəsində, şəxsi həyatda, faktiki bərabərliyi və özünü rellaşdırması üçün bərabər imkanlar yaradılmasından gəlir.

Qadınlar üçün, eləcə də, bütünlükdə, cəmiyyət üçün həyati dərəcədə əhəmiyyətli olan problemlərin həllinin optimal yollarını, metodlarını və vasitələrini tapmaqdan ötrü qadınların hüquq və azadlıqlarının reallaşdırılması üzrə nəzəriyyəni bundan sonra da bugünkü şəraitə uyğun işləyib - inkişaf etdirmək zəruridir, çünki istənilən problemin həlli və ona aid əməli göstərişlər verilməsi onun özünün dəqiq qoyulmasından çox asılıdır. Hələlik isə, bizim nəzəri düşüncələrimiz yalnız qadınla kişinin bərabərliyinin konstitusiyada elan olunması ilə aradan qalxmamış ideoloji və psixoloji stereotiplərin, adət və ənənələrin inikasından ibarətdir."

Yuxarıda qeyd olunmuş strategiyalardan hər birini qısaca nəzərdən keçirək və bizim üçün daha məqbul olanını üzə çıxaraq.

Patriarxal strategiyanın əsasında duran təsəvvürə görə, qadın problemi adlanan problemlərin məhsulu o olmuşdur ki, keçmiş SSRİ-də "qadın məsələsi"nin həlli zamanı qadının müxtəlif sosial rolları birləşdirib, eyni zamanda, ifa etməsi nəzərə alınmamış, bu da onun ikiqat yüklənməsi və nəticədə, öz rollarından heç birini tam ifa edə bilməməsi ilə nəticələnmişdir. Burada, əlbəttə, Qərb ideoloqlarının qadın varlığınm dualizminin (ikili təbiətinin) bir yandan arvad (həyat yoldaşı) və ana kimi, başqa bir yandan əməkçi insan (zəhmətkeş qadın) kimi kəskinləşməkdə olan ziddiyyətləri haqqında fikirləri ilə razılaşmamaq olmaz. Başlıca problem olan qadının həddindən artıq məşğulluğu problemi də buradan irəli gəlir. Bu problemin təklif olunan həll variantları qadının ictimai istehsalda iştirak səviyyəsinin aşağı salınmasına aparıb çıxarır. Bu strategiya qadına münasibətdə "müdafiə" ideologiyasından geniş istifadə edir ki, bura bunlar daxildir: qadına kömək, qadının vəziyyətinin yaxşılaşdırılması, işləyən qadınlara güzəştlər və b.

Eqalitar strategıyanın mahiyyəti ondan ibarətdir ki, onda uşaqların doğulması və tərbiyəsi prosesləri, müxtəlif ailə vəzifələri qadının öz sosial rollarını birləşdirib, eyni zamanda, icra etmək kontekstində daha az nəzərdən keçirilir, əksinə, demoqrafiyanın və iqtisadiyyatın yenidən yaratdığı ictimai münasibətlərin ahəngdarlaşdırılması prosesi kimi götürülür. Bir sosial institut kimi onun funksiyaları dedikdə, yalnız qadın yada düşmür. Eqalitar strategiyanın bazis ünsürü qadın azadlığının qadınlar və kişilər üçün qayğıları onlara əlverişli olmayan sahələrin -ictimai sahə ilə evin qadın üçün, ailənin kişi üçün - tam açılması prosesi kimi ikitərəfli səciyyəsi haqqında konsepsiyadır. Belə siyasət qadına kömək göstərmək istiqamətində hər iki sosial cins üçün bütün sahələrdə bərabər imkanlar yaradılması istiqamətinə yönəlməyi irəli sürür.

L.Mövsümova yazır ki, bərabər imkanlar strategiyasının formalaşdırılmasında Beynəlxalq Əmək Təşkilatı kimi təşkilatların əhəmiyyətli rolu vardır. Məşğulluq sahəsində qadınlara qarşı müxtəlif ayrı-seçkilik formalarının qarşısının alınmasına yönəlmiş beynəlxalq sənədlərin (konvensiyaların, təlimatların) məqsədli surətdə yönəldilməsi Beynəlxalq Əmək Təşkilatının üzvləri olan ölkələrə qadınlarla bağlı daxili sosial siyasətin məqsədlərinin işlənib - hazırlanmasında və həyata keçirilməsində o sənədlərə əsaslanmağa imkan verir.

Eqalitar siyasətin əsası, kişilərə və qadınlara həyatın bütün sahələrində verilən bərabər hüquqlar, vəzifələr və imkanlar, eləcə də, iqtisadi və demoqrafik təkrar istehsala dair qərarlar qəbul etməkdə suveren olan ailədir.

Buradan bu prinsiplərin həyata keçirilməsinin konkret mexanizmi də meydana çıxır: dövlətin ailə və əmək funksiyalarını birləşdirən işçi qadınlara münasibətdə görülməsini mümkün saydığı bütün sosial siyasət tədbirləri ayrılıqda anaya, yaxud ataya deyil, bütünlükdə, ailəyə yönəldilməlidir.

Bəs Azərbaycanın özünəməxsus şəraitində yuxarıda göstərilən strategiyalardan hansı daha məqbuldur? Biz elə fərz edirik ki, qadın məsələsinin həqiqi həlli üçün mütərəqqi siyasət patriarxal və eqalitar strategiyaların birləşməsində ifadə olunan prinsipial olaraq yeni bir əsas üzərində qurulmalıdır. Belə baxış Azərbaycanın zorla cəlb olunduğu müharibə ilə bağlı düşdüyü olduqca çətin vəziyyətdən irəli gəlir. Respublikada yaranmış (belə) siyasi və sosial-iqtisadi situasiyada əhalinin qadın yarısı daha müdafiəsiz vəziyyətə düşmüşdür. Doğma torpağı qoruyarkən, həlak olmuş kişilərin arvadı dul, uşaqları yetim qalmışdır. Belə qadınların böyük əksəriyyəti südəmər və azyaşlı uşaqları olan gənc qadınlardır. Öz tək oğlunu müharibədə itirib dövlətin himayəsinə ehtiyacı olan minlərlə qadın var. Yüzlərlə dinc qadın vəhşicəsinə məhv edilmiş, onların sağ qalmış uşaqları - körpələrədək və uşaq evlərinin kontingentinə çevrilmişlər. Evini və ailəsini itirmiş yüz minlərlə qaçqın ağır tale yükünü daşıyır. Bütün bunlar günümüzün "qadın məsələsi" ilə bu və ya başqa şəkildə bağlı hadisələr və onların ağır nəticələridir. Sonda qeyd etmək lazımdır ki, bu məsələ artıq özünün vahid ölçüsünü, birmənalılığını ideoloji planda da itirmişdir.

Bütün göstərilən kateqoriyalardan olan bədbəxt qadınlar təkcə bizim dövlətin yox, beynəlxalq ictimaiyyətin də patriarxal strategiya ilə nəzərdə tutulan təxirəsalınmaz köməyinə möhtacdırlar. Eyni zamanda, eqalitar siyasətin təməli olan bütün sahələrdə insan hüquqlarını təmin edən təsirli tədbirlər həyata keçirmək zəruridir.

Qadınlar özləri də kortəbii və müstəqil olaraq azadlığın və cəmiyyətin siyasi, təsərrüfat və mənəvi həyatında iştirakın yeni yollarını axtarırlar. İndi heç bir ictimai qüvvə onların düşüncələrinə hakim kəsilmək iddiasında ola bilməz. Artıq qadın mühitində inhisarçı və avtoritar liderlik mümkün deyil. Qadın hərəkatı 'formalarının obyektiv yeknəsəqliyi çoxpartiyalılıq şəraitində öz yerini çoxnövlülüyə verir. Qadınlar fəallıq göstərməyə istiqamət və formalar seçmək imkanı əldə edirlər. Görünür, qadın şuralarını saxlamaq, özü də yalnız onların özlərini doğrultduqları, qadınların onlarda özlərinə dayaq gördükləri, öz maraqlarını qorumağı onlara etibar etdikləri yerlərdə saxlamaq ağıllı hərəkət olar. İstehsalatdan kənarda, ola bilsin, qadınlara ittifaqlar, cəmiyyətlər və birliklər daha yaxındır. Bu gün aqrar sahədə çalışan qadınların maraqlarının heç də bircinsli olmadığını nəzərə alsaq, onların birləşmə formalarını da yaratmaq lazımdır.

Ancaq ictimai hadisələrin özünəməxsusluğu, məlum olduğu kimi, onların ümumiliyini və qarşılıqlı əlaqəsini yox etmir. Aradakı fərqlər qadın hərəkatlarının, ittifaqlarının, cəmiyyətlərinin bir-birini istisna etməsini yox, onların demokratikləşmə əsasında, cəmiyyətin və ailənin əsas siyasi və sosial-iqtisadi maraqlarının üzərində birləşməsini tələb edir.

Müəllifin fikrincə, çox vaxt bizim nəzəri ədəbiyyatda qadın azadlığı şəxsiyyətin sərbəstləşməsi kimi deyil, yalnız "qadının əsarətdən azad edilməsi" kimi izah edilir. Müəlliflərin çoxu belə deyir ki, bu ziddiyyət qadının ailədəki funksiyaları ilə istehsalatdakı funksiyaları arasında, reproduktiv (yeni nəsil vermək) funksiyaları ilə əmək funksiyaları arasında ziddiyyətdir. Real həyatda isə belə bir ziddiyyət yoxdur, orada qadının cəmiyyətdəki sosial rollarının toplusu ilə cəmiyyətin şəxsiyyəti inkişaf etdirmək məqsədilə o rolların reallaşdırılması üçün irəli sürdüyü şərtlər arasında ziddiyyətlər var.

Cəmiyyətdə qadının vəziyyətinin demokratikləşdirilməsi, hər şeydən qabaq, həyat yolunun hər bir mərhələsində öz sosial rolunu seçmək azadlığında, onun üçün təsadüfi, çox vaxt əlverişsiz maddi şəraitlə, əhalinin kişilərdən ibarət hissəsinin eqoizmi (mənəmliyi) ilə şərtlənən seçim şəraiti yaratmaqda deyil, alternativ seçim şəraiti yaratmaqda özünü göstərməlidir.

Elmi mövqelərdən qadın əməyinin özünəməxsusluğu və sosial cəhətdən zəruri olduğu haqqında, işçi qadının fərqləndirici cəhətinin yalnız onun ailə şəraitindən, məişət dairəsində asılı olduğu haqqında fikri deyil, həm də yüksək intizam, borc və məsuliyyət hissi nümayiş etdirdiyi haqqındakı fıkri əsaslandırmaq məqsədəuyğundur. Xeyirxahlıq, əməksevərlik, diqqətlilik, rəhmdillik, doğruçulluq, sadiqlik kimi gündəlik ictimai həyatda get-gedə daha zəruri olan belə şəxsi qadın keyfıyyətlərinin sosial potensialını açmaq vacibdir. Cəmiyyətin həyatının bütün yönlərinin keyfiyyətlərini ahəngdarlaşdıran, insan varlığının bütövlüyünü təmin edən elə bu göstərilənlərdir. Bu xüsusiyyətlər haqqında söhbət yalnız qadın "üçün" və qadın "uğrunda" zəruri deyil, o söhbət, birinci növbədə, qadınlarla birlikdə işləyib, yaxud rəhbər vəzifə tutub, hələ də "qadın məsələsi"nə totalitar və patriarxal baxışlardan yaxa qurtara bilməyən bütün kişilər üçün zəruridir.

Sonunda, qadının mənəvi həyatı və psixologiyası ilə bağlı daha bir problemə toxunaq. Vicdan azadlığı haqqında qəbul olunmuş qanunlara görə, qadınlar dini və ateist dünyagörüşünü seçməkdə kişilərlə bərabər hüquqa malikdirlər, öz uşaqlarını öz əqidələri ruhunda tərbiyə edə bilərlər. Sosioloji araşdırmalar göstərir ki, qadınların bir hissəsi özlərinin dindar olduqlarını, bu və ya başqa dinə inandıqlarını açıq bildirirlər. Bəzi müəlliflər, belə hesab edirlər ki, bu, qadın təbiətinin psixologiyasının, onun emosiyalarının, həssaslığının, zəifliyinin, mərhəmətə və şəfqətə meyilinin nəticəsidir. Biz elə düşünürük ki, bu problemin daha dərin sosial kökləri var.

Cəmiyyətin iqtisadi və mənəvi və əxlaqi böhran keçirdiyi, sabahkı günə inamın olmadığı, ideallardan ümidin üzüldüyü, indiki şəraitdə ictimai və ailə əməyinin ikiqat yükünü çiyinlərində daşıyan, maddi həyat səviyyəsi kəskin şəkildə aşağı enən qadının vəziyyəti hamıdan ağırdır.

Odur ki, Azərbaycan qadınının sosial müdafiəsini yuxarı səviyyəyə qaldırmaq, onu ev "köləliyi"nin təcridindən, həyatının hələ də məruz qaldığı zorakılıq və cinayətkarlıq, sərxoşluq və kobudluq, gündəlik alçaldılma dəhşətindən xilas etmək üçün, indi biz kəskinliklə əlimizdən gələn hər bir şeyi etməliyik.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Corc Soros Əli Kərimlinin başını yeyəcək




## "Milli Şura"dan istefa verənlər yeni qurum yaratmağı planlaşdırırlar

***Bu gün, birmənalı şəkildə demək olar ki, konstitusiyamızda və digər qanunvericilik aktlarında fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsinə geniş yer verilib. Qanunvericiliyin tələblərinə uyğun olaraq, hər kəs informasiyanı əldə edib, onu yaymaq hüququna malikdir.***

Amma gəlin razılaşaq ki, bəzən informasiyanın əldə edilib, yayılması prosesində qərəzkarlığa yol verilir, şər və böhtan məlumatlara daha çox üstünlüyün verilməsinə cəhdlər göstərilir. Buna qarşı etiraz ediləndə və ya qanun çərçivəsində tədbirlər görüləndə, hay-küy qaldırılır, bu, söz və mətbuat azadlığının pozulmasına cəhd kimi qiymətləndirilir.Fakt budur ki, bu cür yol tutan fərdlər daha çox dağıdıcı müxalifət cəbhəsində olan ünsürlərdir. Artıq bu ünsürlər bəd əməllərinin qurbanlıarına çevriliblər. Politoloq İlqar Altayın splərinə görə, Azərbaycan siyasi müxalifətinin durumu son 20 ildə ən kritik nöqtəyə çatıb: "Pərakəndəlik, hərəkətsizlik, xalqdan dəstəksizlik, xarici qüvvələrdən asılılıq, ideyasızlıq və s. və i. Buna gətirib çıxaran səbəblər də müxtəlifdir. Müxalifət liderlərinin zəifliyi, liderciklərin günahı səbəbindən baş verir, Qərbin müxalifəti hər dəfə ruhlandırması da nəticə vermir. Bu durumla, əlbəttə, hansısa perspektivdən danışmaq qeri-ciddi görsənərdi".

Maraqlıdır ki, cəmiyyətin müxalifətə bəslənən dərin nifrətə baxmayaraq, liderciklər öz amplualarından əl çəkmirlər. Yenə də sərsəm, anormal fikirlərini yaymaqda davam edirlər. Hər dəfə də, müxalif ünsürlərin yaydıqları şər və böhtan xarakterli məlumatlara dərhal xaricdəki qüvvələr reaksiya verir və hay-küylü bəyanatlar və hesabatlar yayırlar. Buna misal kimi, "Freedum Hous", "Soros" və bu kimi digər qərəzli məkr yuvalarını göstərmək olar. "Freedum Hous" sifariş əsasında konkret dövləti hədəfə alır, ənənəvi qərəzli tezislərdən istifadə etməklə, filan ölkədə insan hüquqları sahəsində və demokratik proseslərdə problemlərin olduğunu iddia edir. Beləcə, anormal fəaliyyət yolu tutmaqla, hesabatlar yayırlar.

### Dəyişən müxalifət liderlərinin ancaq libasıdır

Corc Sorosun təsisçisi və rəhbəri olduğu Soros fondunun fəaliyyəti də hər kəsə bəllidir. Azərbaycan cəmiyyəti bu təşkilatın erməni lobbisinin əlində Azərbaycana qarşı bir istifadə olunan alət olduğunu çox yaxşı bilir. Ona görə də, Azərbaycan cəmiyyəti bu təşkilatın yaydığı hesabatları ciddi sənəd kimi qəbul etmir. Amma AXCP, Müsavat və "Milli Şura" rəhbərliyi bunun fərqində deyillər. İsa Qəmbər, Əli Kərimli, Arif Hacılı, Cəmil Həsənli kimi ünsürlər birbaşa xarici maraqlı dairələrin Azərbaycandakı alətləri rolunda çıxış edirlər. Hətta bəzən bunu dolayısı ilə göstərirlər də. Nədi-nədi, sözügedən təşkilatlar onlara maliyyə yardımları ayırır. Məhz pul xatirinə dövrədə olmaqla Azərbaycanın milli və dövlətçilik maraqlarına qarşı mübariz metodu seçirlər. Göstərişə əsasən, onlar gah mitinqlər, küçə yürüşləri keçirir, gah da hədələyici bəyanatlarla çıxışlar edirlər. Baxmayaraq ki, bu ünsürlərin təşkil etdikləri mitinqlərə gələn olmur. Ancaq "Milli Şura" və Müsavat liderləri mitinq xəstəliyindən əl çəkmir və demək olaraq ki, hər həftə sonu aksiya keçirmək arzusunda olduqlarını bəyan edirlər. Söz yox ki, mitinqlər zamanı qarşıdurma yaranarsa, dil pəhləvanları hər kəsdən öndə olmaqla, qaçmağa üstünlük verəcəklər. Bunu misal olaraq 2003-cü il 15-16 oktyabr iğtişalarına cəhd zamanı İsa Qəmbərin, 2005-ci Qələbə meydanında polislə qarşıdurma qazmanı Ə.Kərimlinin mühfizəçilərinin köməyini gözləmədən aradan çıxmalarını göstərmək olar. 1990-cı il 20 Yanvar faciəsi zamanı da insanları meydanlara səsləyən İ.Qəmbər, Ə.Kərimli, N.Pənahlı, İ.Hamidov, A.Hacılı sövet qoşunlarının şəhərə soxulduqlarını görüncə, dabanarını tüpürüb, qaçmağa üstünlük verdilər. Bu baxımdan da, onların heç biri cüzi belə zərər görmədilər. Halbuki insanları qırğına, məhz onlar vermişdirlər. Sonradan bəlli oldu ki, 20 Yanvar gecəsi İ.Qəmbər Yusif Səmədoğlunun evində istirahət edirmiş. Ə.Kərimli isə doğulduğu Saatlı rayonu Azadkənd kəndinədə gizlənirmiş.

### Sorosun pulları müxalif liderlərini doymuş məhlula çevirir

Bir sözlə, dağıdıcı müxalifət ünsürləri hər zaman ölkəmizin milli maraqlarına zərbə vurmaqla məşğul olublar. Bu tendensiyanı iyrənc şəkildə bu gün də davam etdirirlər. Artıq sübut olunub ki, Sorosun ayırdığı pullar hesabına doymuş məhlula çevrilən AXCP və Müsavat rəhbərliyi müəyyən sayda gənci "siyasi mühacir" adı altında xarici ölkələrə göndərib. Sonradan xaricə üz tutan gənclər səhvlərini başa düşüb, onları gedərgəlməzə yola salan müxalifət liderlərini ifşa ediblər. Məlum olub ki, Ə.Kərimli, İ.Qəmbər, A.Hacılı 2500-3000 manat pul almaqla, onlara partiya vəsiqəsi verərək, həmin şəxsin guya mitinqlərdə polislər tərəfindən təzyiqlərə məruz qaldığını qeyd ediblər. Bu ifşaedici faktlardan sonra da sözügedən partiya sədrlərinin öz bəd əməllərini davam etdirmələri, o fikri yaradır ki, bu adamlar əxlaqdan və mənəviyyatdan, həqiqətən də, uzaqdırlar. Məhz bu amil onları məhvə sürükləyir. Proseslər və araşdırmalar da təsdiq edir ki, bu gün müxalif düşərgə ən acınacaqlı günlərini yaşamaqdadır. Növbəti parçalanmalar və qopmalara da qaçılmazdır. Bununla belə, müxalifətdə belə parçalanmaların baş verməsinin hazırkı şəraitdə qarşısını almaq da mümkün deyil. Çünki uzun illərdən bəri yığılıb qalmış intriqalar, dedi-qodular birgə addımlamağa və konkret məqsədlər uğrunda mübarizə aparmağa imkan vermir. Bu baxımdan, demək olar ki, yaxın günlərdə AXCP, Müsavat kimi dağıdıcı fəaliyyət yolu seçən partiyalar növbəti dəfə parçalanacaq və ya hansısa partiyaya birləşəcəklər. "Səs"ə verilən informasiyalara görə isə, Eldəniz Quliyev, Oqtay Gülalıyev və digərləri "Milli Şura"dan istefa verərək, yeni qurum yaratmağı planlaşdırırlar. Bu isə, o deməkdir ki, "Milli Şura"da yaranan çatlar getdikcə dərinləşir. Ə.Kərimli yarıtmaz siyasətindən əl çəkməyəcəyi təqdirdə "Milli Şura"nın dağılması qaçılmazdır.

**İ.ƏLİYEV**

---

### Bu il yaz fəsli Azərbaycana martın 21-i saat 01:58-də qədəm qoyacaq

Yaz fəslinin Azərbaycana daxil olacağı vaxt açıqlanıb. Azərbaycan Milli Elmlər Akademiyasından (AMEA) AZƏRTAC-a bildirilib ki, 2019-cu ildə yaz fəsli Azərbaycana martın 21-i Bakı vaxtı ilə saat 01:58-də daxil olacaq. AMEA-nın N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının məlumatına görə, bu zaman gecə ilə gündüz bərabərləşəcək. Günəş ekliptika üzrə hərəkət edərək cənub yarımkürəsindən şimal yarımkürəsinə keçəcək və həmin andan şimal yarımkürəsində yaz fəsli başlanacaq.



---

### Beş avtomobildən oğurluq edən şəxs yaxalanıb

Paytaxtda avtomobillərdən oğurluq edən şəxs tutulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Binəqədi Rayon Polis İdarəsinin 5-ci polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində ayrı-ayrı vaxtlarda rayon ərazisində "AzSamand", "Nissan", "Ford-Transit", "Daewoo" və "London Taxi" markalı beş avtomobildən pul, mobil telefon və sənədlər oğurlamaqda şübhəli bilinən Abşeron rayon sakini E.İsayev saxlanılıb. Faktla bağlı araşdırma aparılır.

---

# "Siyasi mühacirlər"in qrant davası nə birinci, nə də sonuncudur

***Ermənyiə nökərçilik edən və uzun zamandır ki, Avropada klaviatura arxasında oturub, Azərbaycan əleyhinə "qəhrəmanlıq" edənlərin qrant davası çox mətləblərin açılmasına səbəb olunmaqdadır. Bu, baş verməli idi. Çünki müxtəlif maliyyə fondlarının, Sorosun və digər donor təşkilatlarının alətlərinə çevrilənlər barədə və onların sosial şəbəkə mafiyası barədə kifayət qədər faktların mövcudluğu barədə çox yazılıb və ya deyilib. Xüsusilə də, son aylar üzə çıxan fakt - Məhəmməd Mirzəli ilə Tural Sadıqlı arasındakı pul davası əvvəllər də baş verməsinə rəğmən, budəfəki davaları acı bağırsaq kimi uzanmaqdadır. Bu, belə də olmalı idim. Çünki dövlətimiz əleyhinə yönəlmiş kampaniyaların hər biri öz məntiqi nəticəsi ilə ifşa olunmalıydı.***

### Bu deyilənlər barədə faktlar kifayət qədərdir

Maraqlı məqam isə, hər işdə kələkbaz olan bu qrant yalaqları, söyüşləri də "yağ kimi" qəbul edirlər, üzlərinə tüpürsünlər də, təki qrantlarını alsınlar. Əxlaqsızlıq və mənəviyyatçızlıq budur. Elə uzağa da getməyərək, məsələn, bir müddət öncə, "Meydan" TV-nin rəhbəri Emin Millinin "müxalifət marginallaşıb" ifadəsini xatırlaya bilərik. Onun bu sözləri heç də müxalifəti tənqid etmək olmayıb və bu sözlər, bilavasitə qrant bölgüsündə yaranmış ziddiyyətlərdən yaranıb. Buna qədər, AXCP sədri Ə.Kərimlinin və "Milli Şura" sədri C.Həsənlinin tərəfdarları E.Millini ayrılan qrantları təkbaşına mənimsəməkdə ittiham etmişdilər. Nəticədə, Emin Millinin ətrafında olan "mühacir fəallar" isə "Meydan" TV-də C.Həsənli və Ə.Kərimliyə qadağa qoymaması ilə bağlı ittihamlara qarşılıq veriblər. Hər iki tərəfin sosial şəbəkədə "virtual savaşı" isə, həmin ərəfələrdə də, indiki kimi bir çox mətləblərə aydınlıq gətirmişdi. Yəni mahiyyət etibarilə qrant savaşı hər yerdə qrant savaşıdır və bu siyasi dəllallar üçün heç vaxt dövlət, vətən, xalq amili mövcud olmayıb. Müəyyən erməni lobbilərinin təsiri altında fəaliyyət göstərən donor təşkilatlarla da altdan iş görən bu ünsürlər erməni dəyirmanına su tökməklə, erməni çörəyi yeyənlərdir.




### Xədicə İsmayıl-Sevinc Osmanqızı savaşının görünən tərəfi və AXCP...Aslan İsmayılov...Qurban Məmmədov...

Daha bir qrant qarşıdurmasını xatırlaya bilərik. Bu ziddiyyət isə, Xədicə İsmayılla "Amerikanın səsi"ndə Azərbaycan dövləti əleyhinə çıxışlar edən Sevinc Osmanqızı arasında baş verib. Davaya çıxan X.İsmayıl S.Osmanqızının internet üzərindən hazırladığı verilişlərin sponsorunun eks-spiker R.Quliyev olduğunu iddia kimi irəli sürüb. O da qarşı tərəfi qrantları təkbaşına yeməkdə suçlayıb. Digər bir qarşıdurma isə AXCP üzvləri ilə "hüquq müdafiəçisi" Aslan İsmayılov və Qurban Məmmədov arasında yaranan qrant davasıdır.

Beləliklə, bütün bunlar, bir daha sübut edir ki, nə qədər ki, bu qranta görə əqidəsini, məsləkini, mənəviyyatını, vətənini satan əxlaqsızlar var və bunlar bir-birilərini söyəcəklər, özü də söyüşün biri bir qəpiyə.

**R.HÜSEYNOVA**

# Qadın məsələsinin həllində qazanılmış uğurlar

***Qadin məsələsinin həllindəki nailiyyətlər Azərbaycan Respublikasının Konstitusiyasında qeyd olunmuşdur. Konstitusiyamız, cinsi əlamətə görə bərabərliyin sosial səviyyəsini əks etdirir. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasının "Əsas hüquqlar, azadlıqlar və vəzifələr" adlanan ikinci bölməsinin üçüncü fəslindəki "Bərabərlik hüququ" adlı 25-ci maddənin II və III bəndlərində deyilir: "11. Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır. III. Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş huquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır". Qadınlara kişilərlə bərabər təhsil və peşə hazırlığı almaq, əmək, əməyə görə mükafatlandırılmaq, vəzifədə, ictimai-siyasi, mədəni fəaliyyətdə irəliləmək imkanı verilir, habelə, qadın əməyinin və sağlamlığının qorunması üçün xüsusi tədbirlər görülür: qadınların əmək fəaliyyəti ilə ilahi analıq tapşıngını eyni vaxtda yerinə yetirə bilməsinə şərait yaradılır, onlar hüquqi cəhətdən qorunur; analara və uşaqlara maddi yardım göstərilir.***

Azərbaycan Respublikasının Konstitusiyasında ailə və nikah prinsipləri təsbit olunmuş və müasir ailə həmin prinsiplər üzrə qurulmaqdadır. Belə ki, ailə cəmiyyətin əsas özəyi kimi gölürülür, dövlətin xüsusi himayəsi altında olur.

L.Mövsümova yazır: "Konstitusiyanın "Nikah hüququ" adlı 34-cü maddəsi buradan çıxış edərək, ərarvadın hüquq bərabərliyini təsbit edir anaların, ataların və uşaqların hüquqlarını qanunla qoruyur. Beləliklə, ailənin mahiyyətcə yaradıcı, şəxsiyyəti zənginləşdirən funksiyalarının əhəmiyyəti artır. Həmin funksiyalara bunlar da daxildir: uşaqların tərbiyə edilməsi, ailə kollektivində mənəvi dəyərlərə səmtləşmənin formalaşdırılması, boş vaxtda istirahətin təşkili, ərarvad habelə, valideynlərlə uşaqlar arasında emosional əlaqələrin dərinləşdirilməsi bizim cəmiyyətdə ailə tərbiyəsi ilə ictimai tərbiyənin birgə qurulması fikri özünə möhkəm yer tutub sabitləşmişdir. Uşaqların və yeniyetmələrin tərbiyələndirilməsi təcrübəsinin sonrakı təkmilləşdirilməsi ailənin rolunun artırılmasından və uşaqların tərbiyəsi ilə məşğul olan ictimai müəssisələrin işinin yaxşılaşdırılmasından ibarət olur.

Dünyada baş verən sosial-iqtisadi dəyişikliklər istehsalatda, ictimai həyatda və ailədə qadının vəziyyətinin dəyişilməsinə təsir göstərir. Məlum olduğu kimi, indi dünyada qadınlar bəşəriyyətin mövcudluğu üçün zəruri olan maddi nemətlərin üçdən birini istehsal edir və dünya mədəniyyətinin inkişafına böyük töhfə verirlər. Xüsusilə, son on ildə möhkəmlənmiş qadın hərəkatı bu gün elə qüvvədir, ki, onunla hesablaşmamaq olmaz. Yaşadığımız bu günlərdə qadının vəziyyəti və problemləri yalnız mütərəqqi ictimaiyyəti maraqlandırmır, bu problemlərlə dövlətlərarası təşkilatlar da məşğul olur. Buna o fakt şahidlik edir ki, BMT sisteminin, demək olar ki, bütün təşkilatları qadın hüquqları məsələlərinə bu və ya başqa dərəcədə diqqət yetirir.

Həm indiki dövrün ən mühüm məsələləri uğrunda, həm də qadın hərəkatının konkret məsələləri uğrunda ideya-siyasi mübarizədə milyonlarla qadının sülh, milli müstəqillik, qadınların hüquqları və uşaqların xoşbəxtliyi uğrunda mübarizə şüarları altında birləşdirmiş Beynəlxalq Demokratik Qadınlar Federasiyası (BDQF) ardıcıl mütərəqqi mövqelər tutur. Müharibə təhlükəsi əleyhinə, qadınların iqtisadi və sosial vəziyyətinin yaxşılaşdırılması uğrunda BDQF-nin və onun milli təşkilatlarının keçirdiyi kütləvi kampaniyalar və aksiyalar bu təşkilata geniş beynəlxalq qadın ictimaiyyəti dairələri arasında nüfuz və hörmət qazandırmışdır.

BDQF və ona daxil olan təşkilatlarla birgə sülh, gərginliyin azaldılması uğrunda və sürətlə silahlanmaya qarşı mübarizədə, müxtəlif dərəcədə də olsa, çoxlu milli və bir sıra beynəlxalq qadın təşkilatı iştirak edir. Son illər qadın hərəkatı özünün gərgin olmayan münasibətlərin, tərk-silahın həyati dərəcədə əhəmiyyətli problemlərinin həllinə böyük töhfə vermək bacarığını nümayiş etdirmişdir. Axı sülh bütün Yer kürəsinin milyonlarla qadınının ümdə məqsədi, onların cəmiyyətdə qanuni hüquqlarını əldə etməsinin, sosial-iqtisadi inkişafda bərabərhüquqlu iştiraklarının ən mühüm şərtidir".

Gərginliyin zəifləndilməsi tərəfdarı olub, sürətlə silahlanmanı pisləməyi qadınların çoxu qadının sosial vəziyyətinin yaxşılaşdırılması tələbləri ilə bağlayır. Bu isə təkcə göstərilən hər iki məqsəd uğrunda mübarizəni effektli etməklə qalmır, həm də siyasi və ideya mövqelərinin və qadın hərəkatının özünün dünyada təsirinin güclənməsinə kömək edir. İndi qadın hərəkatının özünün yeni, daha yetkin mərhələsinə daxil olduğunu desək, heç də mübaliğəyə yol vermiş olmarıq. Onun səciyyəvi cəhəti ondan ibarətdir ki, qadın hərəkatı bərabərhüquqluluq uğrunda mübarizə problemini get-gedə təcrid edilmiş şəkildə deyil, ümumi sosial-iqlisadi və siyasi vəzifələr kontekstində nəzərdən keçirir, onları ictimai əlaqələr, iqtisadiyyat, mədəniyyət sahəsindəki radikal dəyişikliklərlə əlaqələndirir. Qadın hərəkatındakı əsl demokratik qüvvələrin mövqeyini əks etdirən belə baxış indi beynəlxalq səhədə get-gedə daha çox bəyənilir.

Müəllif qeyd edir ki, qadın hərəkatının sülh və sosial tərəqqi, uğrunda mübarizədə fəallığının, dinamizminin təşəbbüskarlığının artması, qadınların rolunun onların bəşəriyyətin yarısından çoxunu təşkil etdikləri indiki dünyada dayanmadan artdığının bir ifadəsidir. Elmi-texniki inqilab (ETİ) şəraitində ictimai istehsal sahəsində çalışan əmək adamlarının çoxmilyonlu ordusunda qadınların sayı sürətlə artmağa başladı. İndi qadınlar ümumdemokratik və milli-azadlıq hərəkatlarında getdikcə daha fəal iştirak etməklə, ümumdünya tərəqqisinin inkişafına mühüm töhfə verirlər.

Beləliklə, dünyada son illərdə baş verən dərin sosial-iqtisadi, siyasi və ideoloji irəliləyişlər, elmitexniki tərəqqi, qadınların bərabərhüquqluluğu uğrunda mübarizə aparan müxtəlif hərəkatların uğurları, qadınların özlərinin güclü fəaliyyət göstərməyə çalışmaları - bütün bu amillər qadınların ictimaisiyasi və istehsalat həyatına daha çox kütləvi surətdə cəlb olunması tendensiyasını şərtləndirmişdir.

Faktiki bərabərliyin əldə edilməsi problemini nəzərdən keçirərkən, çox vaxt qadınların qərarların qəbul edilməsi proseslərində geniş iştirakının zəruriliyinə diqqət yetirilmir. Demək olar ki, qadınların peşə məşğulluğuna qarşı qabaqcadan mənfi yanaşma halları, əməli olaraq, aradan qalxmışdır. Ancaq qadının peşə karyerasına qabaqcadan hasil olmuş, guya qadınların, bütünlükdə, peşə uğurlarına daha az yönəldiyi ilə, onların bu tələbatı dərk etmədikləri ilə izah olunan yanlış münasibət yenə də mövcuddur.

Araşdırıcılar qadının xarakteri, təbiəti ilə onun peşə, ictimai və ailə-məişət fəaliyyəti arasında qarşılıqlı əlaqə olduğunu üzə çıxarmışlar. Qadının təhsili nə qədər yuxarıdırsa, əməyi məzmununa görə, nə qədər ixtisaslı və zəngindirsə, onun ailə üzvləri yanında nüfuzu, ailədə qərarların qəbul olunmasında iştirak payı da o qədər çoxdur. Yəni qadınların peşəkar fəaliyyəti ailədaxili münasibətlərin təkmilləşməsinə güclü mütərəqqi təsir göstərir.

Peşə fəaliyyətinin və ictimai fəaliyyətin təsiri altında qadının həyat tələbatı genişləndiyi üçün onun maraqları ev, ailə çərçivələri ilə məhdudlaşmır və mülki, ictimai maraqlar aləminə çıxır. Qadınananın şaxsiyyəti daha çoxcəhətli olur, ailədə nüfuzu, ailənin mənəvi həyatına, onun üzvlərinin mənəvi dəyərlər səmtinin formalaşmasına təsiri böyüyür.

L.Mövsümova göstərir ki, qadınların peşə karyerası haqqında mövcud olan, qabaqcadan hasil olmuş yanlış qənaət cinslər arasında bərabərsizlik üçün səbəb ola bilməz və bu qənaət formalaşmış stereotipin nəticəsidir. Bir misal gətirək: cəmiyyətdə dolaşan bir fikrə görə, peşə karyerası qadınlıq keyfiyyəti ilə bir araya sığmır. Başqa sözlərlə deyilsə, guya cinsi mənsubiyyət sosial rola tabe olur. Bir halda ki, sosial rolların bölgüsünə uyğun olaraq, peşə karyerası kişi ilə eyniləşdirilir, onda burada nailiyyət də qadınlardan deyil, kişilərdən gözləyirlər. Buna görə də, artıq lap başlanğıcdan burada ictimai münasibətlərin strukturu, kişilərin və qadınların rolu və funksiyaları, sosial subordinasiyalar haqqında köhnəlmək-də olan təsəvvürlərin elə həmin stereotipi açılır. Qadınların rəhbərlik etmək qabiliyyətlərinə, ümumilikdə, inamın olmaması onların özlərinin də öz imkanlarını tam qiymətləndirə bilməməsi halları çoxalır, onlarda öz qüvvələrinə inamsızlıq hissi doğur. Bu qadınların peşə karyerası istəyinin olmaması ilə deyil, daha çox cəmiyyətin onların nailiyyətlərinə göz yumması ilə bağlıdır.

Müəssisələrin, təsərrüfatın bazar sisteminə keçməsi ilə yeni problemlər meydana çıxır. Yeni sistem təsərrüfat fəaliyyətinin təşkilinin elə formasını təqdim edir ki, həmin forma tətbiq ediləndə, müəssisənin təsərrüfat hesablı, subyekt olaraq, daha təsirli xüsusiyyətləri olan, daha dözümlü, tez-tez dəyişən istehsal münasibətlərinə yaxşı alışan və mütərəqqi dəyişikliklər hasil etməyə qadir olan işçi qüvvəsini cəlb etməyə və saxlamağa obyektiv iqtisadi marağı yaranır. Bazar münasibətlərinə "təmiz şəkildə" keçid işçi qadın qüvvəsini, obyektiv olaraq, sıxışdırıb aradan çıxaracaq. Bu, o deməkdir ki, istehsalın yeniləşdirilməsi, ştatların ixtisarı və b. dəyişikliklərlə bağlı, qadınlar öz iş yerlərini itirəcəklər. Bu isə, yalnız fəhlə qadınlara deyil, ali təhsilli qadınlara da aiddir. Onların da yalnız qadın olduqlarına görə kişilərlə bərabər perspektivli, maraqlı iş əldə etmək imkanı olmayacaq. Belə ayrı-seçkiliklə ali məktəblərin məzunları artıq üzləşməkdədirlər. Qadınların etibarsız işçi hesab olunmaları stereotipi hamıya təsir edəcək. Belə olduğu halda, biz qadına münasibətdə cinsi əlamətə görə ayrıseçkiliklə üzləşmiş oluruq.

Ancaq bütün bunlara baxmayaraq, cəmiyyət özü qadın tiplərini doğurur. Müasir qadınlar, əsasən, möhkəm xarakterli və iradəli, kollektivçi psixologiyaya, mənəvi maraq və tələbatın geniş dairəsinə malik, ailə həyatı ilə sıx bağlı olan və eyni zamanda, onun hüdudlarından kənara çıxmağı bacaran qadınlardır. Cəmiyyətin və ailənin işlərinə dərindən bağlanmaq, onları özündə yaşatmaq bacarığı, ölkə daxilində və onun hüdudlarından kənarda baş verən hadisələrdən təsirlənərək, təlaş keçirmək müasir Azərbaycan qadınının mənəvi aləminin və həssas təbiətinin fərqləndirici cəhətləridir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Lady Gaga "Oskar" mərasiminə 40 milyon dollarlıq brilyant boyunbağıda gəlib



Müğənni Lady Gaga "Oskar" mükafatının təqdimetmə mərasimində qırmızı xalı üzərinə dünyanın ən iri brilyantlarından biri ilə bəzədilmiş boyunbağıda çıxıb. ABC telekanalında yer alan xəbərdə deyilir ki, dəyəri 40 milyon dollardan baha qiymətləndirilən sarı brilyant "Tiffany & Co" kompaniyasına məxsusdur. 288 karatlıq qiymətli daş 1877-ci ildə Cənubi Afrikada aşkarlanmış, bir il sonra isə onu zərgərlik kompaniyasının banisi Çarlz Tiffani satın almışdı. Cilalandıqdan sonra 82 bucaqlı brilyantın çəkisi 128,54 karata düşmüşdü. Qeyd edək ki, brilyantı sonuncu dəfə 1961-ci ildə "Tiffanidə səhər yeməyi" filminin reklam çəkilişində aktrisa Odri Hepbern taxmışdı.

## DİQQƏT: Beyini 10 il tez qocaldan BƏLA...



Depressiya beyinin qocalması prosesini sürətləndirir. Bu barədə Yel Universitetinin alimləri xəbərdar edirlər. İlkin araşdırmalar göstərib ki, depressiyalı insanlarda beyin 10 il tez qocalmağa başlayır. Belə ki, depressiyalı pasiyentlərdə beyinin qocalması prosesi 40, digər insanlarda isə 50 yaşında başlayır. Tədqiqatçıların fikrincə, bu araşdırmanın nəticəsi kişilərlə müqayisədə depressiyadan iki dəfə artıq əziyyət çəkən qadınlarda qocalıqla əlaqədar əqli zəifliyin inkişafının hansı səbəbdən 3 dəfə çox olmasını anlamağa kömək edir.

## Xəbərdarlıq: "Artıq çəki həm də ciddi psixoloji problemdir"



ABŞ-da yaşayan fitnes məşqçisi Dryu Menninq öz üzərində çox maraqlı və eyni zamanda təhlükəli eksperiment aparıb. Menninq 1 il ərzində əvvəl 32 kq artıq çəki yığıb, sonra isə bu çəkidən qurtulub. Belə ki, məşqçi bunu öz müştərilərini - kök insanları daha yaxşı anlamaq üçün edib.

Çəki yığmaq üçün Dryu idman zalına getməkdən imtina edib və daim fast-fud yeməklərini yeməyə və şirin qazlı içkiləri içməyə başlayıb. Bu "üsulla" məşqçi yarım il ərzində əzələli pəhləvandan qarınlı şişman insana çevrilib. Artıq çəki ilə birlikdə eksperimentə qədər sap-sağlam olan Menninq bir sıra sağlamlıq problemlərini də "əldə edib" - yüksək xolesterin, təzyiq, immun sisteminin zəifləməsi və s.

Yarım ildən sonra Dryu artıq çəkidən azad olmağa başlayıb. Bunun üçün o, idman zalında məşqlərə başlayıb və sağlam qidalanmaya keçib. Yarım ildən sonra Menninq öz əvvəlki formasını tam bərpa edib. Öz eksperimentin köməyi ilə Dryu Menninq sübut edib ki, sağlam qidalanma və idmanın köməyi ilə əhəmiyyətli şəkildə arıqlamaq mümkündür. Dryu etiraf edib ki, eksperimentdən sonra artıq çəkisi olan insanları, onların psixologiyasını daha yaxşı anlamağa başlayıb. Onun sözlərinə görə, artıq çəki tək fizioloji deyil, həm də ciddi psixoloji problemdir.

### ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Biologiya müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Abdiyeva Sevinc Elşad qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## "Barselona" şokda: Suares "El-Klassiko"nu buraxacaq?



"Barselona"nın hücumçusu Luis Suares İspaniya kubokunun yarımfinal mərhələsinin "Real"la cavab oyununu buraxa bilər.

"Football Espana" nəşrinin yazdığına görə, uruqvaylı futbolçu dizindəki zədədən əziyyət çəkir. Klub Suareslə bağlı rəsmi açıqlama yaymasa da, məşqçilər heyətinin 31 yaşlı forvardın durumuna görə narahat olduğu bildirilir. Çünki təcrübəli oyunçu dizindəki zədəyə görə ötən ilin noyabr ayında da 2 həftə oynaya bilməmişdi.

Qeyd edək ki, "Real" - "Barselona" oyunu Bakı vaxtı ilə 00:00-da başlayacaq. Kubokun yarımfinalındakı ilk "El-Klassiko"da qalib müəyyənləşməmişdi - 1:1.

## Robben və Frank Riberi yayda "Bavariya"dan ayrılacaq



Almaniyanın "Bavariya" klubunun ulduz futbolçuları hollandiyalı Ariyen Robben və fransalı Frank Riberi mövsüm sonunda komandadan ayrılmaq qərarına gəliblər. TASS informasiya agentliyi xəbər verir ki, 35 yaşlı futbolçular Münxen klubu ilə müqaviləni uzatmayacaq. Hər iki futbolçunun müqaviləsi cari mövsümün sonunda bitir. Robben və Riberinin şərəfinə vida matçı keçiriləcək. "Onlar üçün vida matçı təşkil edəcəyik. Belə bir komanda üçün illərini xərcləyən və klubun nailiyyətində rolu olan futbolçuları əsas girişdən yola salmaq lazımdır", - deyə "Bavariya"nın prezidenti Uli Xenes "Sport1" telekanalına müsahibəsində deyib. Qeyd edək ki, Riberi 2007-ci il, Roben isə 2009-cu ildən "Bavariya"nın şərəfini qoruyur. Fransalı futbolçu ümumilikdə klubda 22, hollandiyalı isə 19 titul qazanıb.

## Futbol üzrə Azərbaycan çempionatları tarixinin antirekordu təkrarlanıb



Futbol üzrə Azərbaycan çempionatında mövsümün 6-cı avtoqolu qeydə alınıb. Bu uğursuzluqla "Qarabağ"ın futbolçusu Bədavi Hüseynov üzləşib. Müdafiəçi XVIII turun "Sabah"la səfər oyununda (1:1) öz qapısına qol vurub. Bununla da B.Hüseynov Azərbaycan çempionatları tarixinin antirekordunu təkrarlayıb. Belə ki, "Qarabağ"ın futbolçusu Premyer Liqada 3-cü dəfə avtoqol müəllifi olub. Futbolçu 2011/2012-ci il mövsümündə "Sumqayıt"da çıxış edərkən "Kəpəz"lə, 2013/2014-cü il mövsümündə isə "Qarabağ"ın heyətində "Simurq"la səfər oyunlarında da öz qapısına qol vurub. Müdafiəçi Azərbaycan çempionatları tarixində hamıdan çox - 3 avtoqola üzülən 7-ci oyunçudur. Onadək Ayxan Abbasov, Saşa Yunisoğlu, Denis Silva, Ruslan Abışov, Natiq Qasımov və Jairo Rodriges də eyni sayda uğursuzluq yaşayıb.

## "Neftçi"nin seriyası qırıldı



"Neftçi"nin Topaz Premyer Liqasındakı ev oyunlarında məğlubiyyətsizlik seriyası qırılıb. Bu, 18-ci turun "Səbail"lə görüşünə təsadüf edib. 1:2 hesabı ilə uduzan "ağ-qaralar" mövsümdə ilk dəfə öz meydanından xalsız ayrılıb. Bunadək "Neftçi"nin çempionatdakı son ev məğlubiyyəti 2017-ci il noyabrın 19-na təsadüf etmişdi. Həmin gün "Qəbələ"yə 2:3 hesabı ilə uduzan "ağ-qaralar" 462 gündən sonra məğlubiyyətlə üzləşib. Ötən mövsüm 9, cari çempionatda 8 görüşdə uduzmayan komandanın 17 matçlıq seriyası qırılıb. Bu müddətdə paytaxt təmsilçisi 12 qələbə qazanıb, 5 heç-heçə edib.(pfl.az)

## "Barselona"nın sabiq prezidenti "çirkli pulların yuyulması"nda ittiham olunur



Braziliya Futbol Konfederasiyasına məxsus 20 milyon avro məbləğində "çirkli pulların yuyulması"nda təqsirləndirilən "Barselona" futbol klubunun sabiq prezidenti Sandro Rosell həyat yoldaşı və digər dörd müqəssirlə birgə bu gün Milli Məhkəmədə müttəhimlər skamyasında əyləşib.

AZƏRTAC xəbər verir ki, S.Rosell Braziliya yığmasının imic hüquqlarının, həmçinin braziliyalıların yoldaşlıq oyunlarının nümayiş etdirilməsi hüquqlarının satışından qazanılmış pulları mənimsəyib. Prokurorluq 2017-ci ilin may ayından həbsxanaya yerləşdirilən Sandro Rosell üçün 11 il azadlıqdan məhrumetmə cəzası və 59 milyon avro cərimənin ödənilməsi barədə qərar çıxarılmasını tələb edir.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500